Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 90 (8113) CÜMƏ, 26 aprel 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# İlham Əliyevə qlobal miqyasda növbəti böyük etimad

## Dünyanın ən güclü fövqəldövlətlərindən olan Çinin lideri Azərbaycan Prezidentini dostu adlandırdı, onun dəstəyini yüksək qiymətləndirdi və daha uğurlu gələcəyə birgə imza atacaqlarını bəyan etdi

Prezident İlham Əliyevin Çinə səfəri işgüzar xarakter daşısa da, keçirilən yüksək səviyyəli görüşlər, ölkəmiz və liderimizlə bağlı səslənən fikirlər səfərin elə rəsmi dövlət statusunda baş tutduğuna dəlalət edir.

Ən mühüm nüans isə odur ki, dövlət başçımız "Bir kəmər, bir yol" layihəsinin əsas dəstəkçilərindən biri olmaqla kifayətlənmədiyini, bu təşəbbüsün həyata keçirilməsində də əsas siyasi-iqtisadi istinadlardan olacağını bildirdi və bu rəy beynəlxalq səviyyədə olduqca mühüm müdafiə kimi dəyərləndirildi.

### Fövqəlgüc Azərbaycanı əsas tərəfdaş kimi seçib

İlham Əliyev diplomatiyasında Çinlə münasibətlərə xüsusi önəm verir. Özü də əməkdaşlıq yalnız iqtisadi-ticari sahə ilə məhdudlaşmır. Siyasəti ehtiva edən olduqca genişprofilli istiqamətlər üzrə fəal əməkdaşlıq, regional təşkilatlardan beynəlxalq qurumlaradək hər yerdə uzlaşdırılmış vahid mövqe sərgiləmək rəsmi Bakı ilə Pekinin əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Bir mühüm məqam da Çinin daim Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə dəstəkləməsi, Dağlıq Qarabağ probleminin yalnız sərhədlərin dəyişməzliyi prinsipi ilə həllini mümkün saymasıdır.

Çəkinmədən hər iki ölkəni səmimi dost, etibarlı partnyor hesab etmək olar. Münasibətlərin bu axarı Azərbaycan üçün çox vacibdir. Nəzərə alaq ki, dünyanın ikinci iqtisadi-siyasi gücü əzmlə "birinci"-yə çevrilmək iddiasını ortaya qoyub və bu prosesdə ardıcıl uğurlar qazanır. Çin "nüfuz dairəsi"ni artıq sərhəd qonşularından bütün Asiya və Afrikanı əhatə edən coğrafi arealadək genişləndirib. Həmçinin yeni iqtisadi-ticari münasibətlər sistemi sayəsində Avropa və Amerika qitələrində əsas inhisarçılardan birinə çevrilir.

İndi Çinin qarşısında duruş gətirmək olduqca çətindir və ABŞ-dan Avropa ölkələrinə, Rusiyadan Yaponiyayadək bütün paytaxtlarda anlayırlar ki, dünyanın yeni nizamının əsaslı korrektələrini məhz Pekin edir. Belə bir siyasi, iqtisadi güclə dost olmaq Azərbaycan üçün də, şübhəsiz, böyük uduşdur.

Amma son səfər sübut etdi ki, dünyanın yeni fövqəlgücü ilə Qafqazın liderinin münasibətlərini tənzimləyən əsas amil məhz liderlər arasında mövcud olan səmimi və etibarlı dostluqdur. Və hər birimiz dünya gündəmini müəyyənləşdirən fövqəldövlətin liderinin Prezident İlham Əliyev barədə söylədiyi olduqca xoş rəydən qürurlandıq.

### Dünyanın yeni iqtisadi fatehindən "İlham Əliyev mesajı"

Si Cinpini Çin Xalq Respublikasının əvvəlki sədrlərindən fərqləndirən çox xüsusiyyətlər var. Əvvəla, onun "Çin spesifikalı sosializm" nəzəriyyəsi ölkəni dünyanın yeni iqtisadi fatehinə çevirib.

Ardı 2-ci səh.

## Azərbaycan Prezidenti İlham Əliyevin Çinə işgüzar səfəri

### "Huawei" şirkətinin Azərbaycandakı fəaliyyəti yüksək qiymətləndirildi

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində "Huawei" şirkətinin sədri Lian Xua ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Huawei" şirkətinin sədri Lian Xua artıq 15 ildən çoxdur Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini bildirdi və onlara yaradılan şəraitə görə dövlətimizin başçısına təşəkkür etdi.



Prezident İlham Əliyev "Huawei" şirkətinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirdi, bu şirkətin informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərindən biri olduğunu qeyd etdi. Həmçinin 2015-ci ildə Çinə dövlət səfəri zamanı "Huawei" şirkətinin fəaliyyəti ilə yaxından tanış olduğunu bildirdi. Azərbaycan ilə "Huawei" arasında əməkdaşlıq baxımından böyük perspektivlərin olduğunu deyən dövlətimizin başçısı bu şirkətin "Bakutel" sərgisində ənənəvi iştirakından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev İKT sahəsində ölkəmizdə həyata keçirilən islahatlardan danışdı, bu sahədə "Huawei" ilə əməkdaşlığın perspektivli olduğunu bildirdi.

Söhbət zamanı İKT infrastrukturu, ağıllı kənd təsərrüfatı, ağıllı şəhər və ağıllı ev, rəqəmsal iqtisadiyyat, rəqəmsal təhsil və digər sahələrdə reallaşdırıla biləcək layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

### "China National Electric Engineering" şirkətinin Sumqayıtda yaratdığı müəssisə ölkəmizin ixrac imkanlarını artıracaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Pekində "China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy aprelin 24-də Pekində Sumqayıt Kimya Sənaye Parkında şin zavodunun tikintisi ilə əlaqədar niyyət protokolunun imzalandığını bildirdi. Bundan əvvəl də ölkəmizdə müxtəlif sahələrə dair bir neçə layihəni həyata keçirdiklərini deyən Cao Huy Azərbaycandakı investisiya mühitindən, xarici sərmayədarlar üçün yaradılan şəraitdən razı qaldıqlarını vurğuladı və buna görə dövlətimizin başçısına təşəkkür etdi.



Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafının ölkəmizdə prioritet sahə olduğunu deyərək dünən müxtəlif sahələrdə əməkdaşlığa dair 10 sənədin imzalandığını, bununla da Azərbaycanın sənaye sahəsinə çoxlu sərmayənin yatırılacağını bildirdi. Sumqayıt Kimya Sənaye Parkında xüsusi vergi rejimlərinin tətbiq edildiyini, bunun isə xarici sərmayədarlar üçün daha cəlbedici olduğunu deyən dövlətimizin başçısı "China National Electric Engineering" şirkətinin növbəti rezident kimi Kimya Sənaye Parkında öz müəssisəsini yaratmasını yüksək qiymətləndirdi, bu müəssisənin Azərbaycanın ixrac imkanlarını artıracağını bildirdi. Dövlətimizin başçısı ölkəmizdə yaxşı sərmayə imkanlarının olduğunu, Dünya Bankının "Doing Business" hesabatına görə, Azərbaycanın 32 pillə irəliləyərək dünyada ən çox islahat həyata keçirən 10 ölkə sırasında olduğunu vurğuladı. Bununla da Azərbaycanın böyük tərəqqiyə nail olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə xarici sərmayələrin yüksək səviyyədə qorunduğunu, bunun xarici investorlar üçün ölkəmizin cəlbediciliyini artırdığını vurğuladı.

# Etibar qazanmaq və maarifləndirmək



## Azərbaycanın bugünkü sosial-iqtisadi inkişafı ilə ayaqlaşa bilməyən sığorta sisteminin əsas vəzifəsidir

Şamaxı və Ağsu rayonları ərazisində baş verən təbii fəlakət - zəlzələnin törətdiyi dağıntılar, bunun ardınca isə paytaxtın Nizami rayonundakı "Diqlas" ticarət mərkəzinin yanması nəticəsində çoxsaylı iş adamlarına dəyən maddi ziyan gündəmə bir çox problemlərlə yanaşı, sığorta məsələsini də gətirdi və bəri başdan deyək ki, bu, təsadüfi deyildi.

Çünki əksər ölkələrdə fiziki, yaxud hüquqi şəxslərin malına və canına belə hadisələrdən dəyən ziyanı sığorta şirkətlərinin qarşılaması və ümumiyyətlə, bir xidmət sistemi kimi sığortanın işinin məhz bundan ibarət olması fonunda Azərbaycanda iqtisadiyyatın aparıcı sahələrindən hesab edilən belə bir sektorun zəif inkişafı yalnız təəssüf və təəccüb doğura bilərdi.

Nə yaxşı ki Azərbaycanda Prezident İlham Əliyevin timsalında bütün çətin, gözlənilməz məqamlarda vətəndaşının yanında olan, ona arxa duran, sahib çıxan bir dövlət var və bu dövlət hər dəfə ayrı-ayrı qurumların, vəzifə sahiblərinin yenə də təəssüf və təəccüb doğuran bütün nöqsanlarını, səhlənkarlıqlarını, məsuliyyətsizliklərini vətəndaşının mənafeyi naminə sığortalayır.

Ardı 5-ci səh.

# Azərbaycan inkişafının yeni mərhələsindədir

## Respublikamızın gəlirlərinin artması vətəndaşların sosial rifahının gücləndirilməsi ilə bağlı görülən işlərə mühüm töhfələr verəcək

Ötən 16 ildə Azərbaycanın keçdiyi sürətli inkişaf yolunun əsas səbəblərindən biri həyata keçirilən düşünülmüş və əsaslandırılmış islahatlardır.

Elə buna görə inkişafın Azərbaycan nümunəsindən danışarkən hər bir sahədə zamanın nəbzini tutan islahatların aparılması, fəaliyyət dinamizminin təmin edilməsi üçün yeni yanaşmaların tətbiqi daha çox diqqəti cəlb edir. Respublikamızın ildən-ilə artan inkişaf göstəriciləri aparılan uğurlu islahatların nəticəsinin təsdiqidir.

Xatırladaq ki, bir neçə il əvvəl dünya bazarlarında neftin qiymətinin aşağı düşməsi nəticəsində yaranmış böhrandan Azərbaycan məhz yeni və sürətli islahatlar keçirməklə çıxdı.

Ardı 3-cü səh.

## Lüksemburqun Böyük Hersoqu Əlahəzrət Anriyə

Əlahəzrət!

Atanız - görkəmli dövlət xadimi, Böyük Hersoq Janın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizə və bütün Lüksemburq xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2019-cu il*

# Humanizmə söykənən sosial müdafiə

## İkinci Dünya müharibəsinin iştirakçıları da Prezidentin xüsusi qayğısı əhatəsindədir

İlham Əliyev hələ birinci dəfə Prezident seçildikdən sonra imzaladığı ilk fərman və sərəncamlar əhalinin sosial müdafiəsi ilə bağlı olmuşdur. Təkcə 2004-cü ildə dövlət başçısı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə ümumilikdə 10-dan çox fərman və sərəncam imzalamışdır. Bu ondan xəbər verirdi ki, İlham Əliyevin Prezident kimi diqqət ayıracağı əsas sahə vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi olacaq. Sonrakı dövrdə Prezident tərəfindən həyata keçirilən tədbirlər bunu sübut etdi.

Günü bu gün də ölkəmizdə hər il əməkhaqları, sosial ödənişlər, müavinətlər artırılır, pensiya sistemi təkmilləşdirilir. Pensiyadan söz düşmüşkən qeyd edək ki, Prezidentin tapşırığına əsasən, vətəndaşlara təqaüdlərin ödənilməsində ədalətin təmin edilməsinə daim diqqət yetirilir. Buna pensiyanın baza hissəsinin artırılması və indeksləşdirilməsi sayəsində nail olunur.

Azərbaycanda həyata keçirilən sosial islahatlar davamlı xarakter daşıyır. Məhz bu hesaba son 15 ildə maaşlar 7, pensiyalar 9, minimum əməkhaqqı 6,5 dəfə artıb.

Ardı 3-cü səh.







# Küçələrin fəthi başladı

## Pilotlar yarışa, bolidlər isə trekə hazırdır

Bu gün Bakı sayca 4-cü dəfə möhtəşəm tədbirə - "Formula-1" Azərbaycan Qran-prisinə evsahibliyi edir. Sürətsevərlər planetin ən güclü 10 komandası və 21 pilotun əzmkar mübarizəsinin şahidi olacaqlar. Yarışın keçiriləcəyi Bakı Şəhər Halqası bəzi xüsusiyyətlərinə görə digər "Formula-1" treklərindən seçilir.

Şəhərin müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası şəhər trekidir və digərləri ilə müqayisədə burada maksimal sürətin qeydə alınacağı gözlənilir. Pilotların yarışacağı avtomobillər - bolidlər də starta tam hazır vəziyyətdədir. Pilotların trekdən qalib ayrılmaq üçün bütün güclərini səfərbər edəcəkləri şübhəsizdir.

### Bu gün trasla tanışlıq olacaq

Digər qran-prilərdə olduğu kimi, paytaxtımızda yarışacaq komandalar da reqlamentə əsasən bu gün hər biri 1,5 saat davam edəcək iki sərbəst yürüşdə trasla tanış olacaq, maşınları yarışa hazır vəziyyətə gətirəcəklər. Şənbə günü səhər sürücülər bir saatlıq məşq keçəcəklər. Adətən, nahardan sonra sıralanma turu və ya təsnifat mərhələsi təşkil olunur. Bu turun yekun nəticəsinə görə sürücülərin bazar günü keçiriləcək yarışda start düzümü formalaşır.

### Azərbaycan Qran-prisinin əsas yarış günü

Aprelin 28-də isə Azərbaycan Qran-prisinin yarış günüdür. Sürücülər bir gün əvvəlki sıralanma turunun nəticələrinə görə startda yerlərinə keçirlər. Əvvəlcə sürücülər trasda bir dövrə vuraraq təkərləri və əyləcləri qızdırır, dövrənin tamamında isə yenidən start yerlərini tuturlar.

Yarışın direktoru Çarli Uaytinqin xüsusi işarəsindən, yeni 5 qırmızı işığın sönməsindən sonra yarış başlayır. Dövrənin uzunluğundan asılı olaraq sürücülər müxtəlif traslarda müxtəlif sayda dövrələr vururlar.

Ardı 6-cı səh.

# “China Poly Group” Korporasiyası ölkəmizdə fəaliyyətini genişləndirməkdə maraqlıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Pekində “China Poly Group” Korporasiyasının sədri Su Nianşa ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, korporasiyanın sədri Su Nianşa Dünya İqtisadi Forumu çərçivəsində Davosda Azərbaycan Prezidenti ilə görüşünü xatırlayaraq bu görüşün onda böyük təəssürat yaratdığını bildirdi. O, rəhbərlik etdiyi şirkətin Azərbaycanla bir sıra sahələrdə əməkdaşlıq qurduğunu və ölkəmizdə fəaliyyətlərini genişləndirməkdə maraqlı olduqlarını söylədi.

Prezident İlham Əliyev Azərbaycanda sənaye müəssisələrinin yaradılması, kənd təsərrüfatı, İKT, turizm və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi. Son illərdə turizm sektorunda böyük inkişafın və artımın müşahidə edildiyini deyən dövlətimizin başçısı viza rejiminin sadələşdirilməsi və elektron vizanın tətbiqi sayəsində Çindən ölkəmizə turist axınının sürətləndiyini bildirdi.

Söhbət zamanı əməkdaşlığın müxtəlif sahələri ilə bağlı geniş fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidentinin Çin rəsmiləri ilə görüşləri yerli KİV tərəfindən geniş işıqlandırılıb







Çin Xalq Respublikasının kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti İlham Əliyevin 2-ci “Bir kəmər, bir yol” beynəlxalq forumunda iştirak üçün Pekinə səfərinə və keçirdiyi görüşlərə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, dünyanın ən nüfuzlu informasiya agentliklərindən biri olan Sinxua, geniş oxucu şəbəkəsinə malik gündəlik rəsmi “Jenmin Jibao” qəzeti, bir milyard tamaşaçı auditoriyası olan Çin Mərkəzi Televiziyası (CCTV), nüfuzlu “China Daily” qəzeti, 50-dən çox dildə yayımlanan Çin milli radiosu, digər qəzet və xəbər saytları Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin, Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla görüşlərinə dair bir neçə dəfə xəbərlər verib, reportajlar yayımlayıblar.

Bundan başqa, Sinxua agentliyi Prezident İlham Əliyevin həyat və fəaliyyətinə həsr olunan xüsusi material da hazırlayıb.

Materiallarda Azərbaycanın Avrasiya regionunda Çinin vacib tərəfdaşı olmasından, ölkəmizin “Bir kəmər, bir yol” təşəbbüsündə fəal iştirakından bəhs edilir. Qeyd olunub ki, iki ölkə arasında münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir. “Bir kəmər, bir yol” strategiyası iki ölkənin əməkdaşlığı üçün yeni və geniş imkanlar yaradır.

# İlham Əliyevə qlobal miqyasda növbəti böyük etimad

*Əvvəli 1-ci səh.*

Həmçinin ötən il “Forbes” tərəfindən planetin ən nüfuzlu şəxsi seçilməsi də ona beynəlxalq münasibətin ən dolğun ifadəsidir. Bir məsələni də xüsusi vurğulayaq: Çin isteblişmenti öz liderinin xarizmasını, alternativsizliyini birmənalı qəbul edir, məhz onun hakimiyyətinin uzunömürlülüyünü dövlətin qüdrətinin zəmini kimi tanıyır və onilliklər boyu mövcud olan “rəhbərin iki müddətə seçilməsi” məhdudiyyətini götürərək Si Cinpinə etimadını göstərir.

Belə bir şəxsiyyətin dilindən Azərbaycan Prezidentinə səslənən fikirlər isə, əlbəttə, protokol iltifatı kimi qəbul olunmamalıdır. Bu, İlham Əliyevə qlobal miqyasda elan edilən növbəti mühüm dəstək, onun liderliyinə verilən önəmli qiymətdir.

Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Prezidentinin şəxsən ikitərəfli münasibətlərin inkişafına, “Bir kəmər, bir yol” təşəbbüsünün birlikdə reallaşdırılmasına verdiyi töhfələrə görə təşəkkür etdi, bu layihənin ilk dəstəkçilərindən olmasını yüksək qiymətləndirdi. Azərbaycanı Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biri sayaraq İlham Əliyevlə birlikdə ortaq səylərlə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirəcəklərini söylədi.

“Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram” - bu fikirlər isə, əslində, həm də Azərbaycan-Çin münasibətlərinin yeni hədəflərinə böyük inamın təcəssümü idi.

## Bir kəmər, bir yoldan eyni hədəflərə, eyni məqsədlərə doğru

Səfər çərçivəsində Prezidentin Çin şirkətlərinin rəhbərləri ilə görüşləri də iqtisadi münasibətlərin perspektivi baxımından vacibdir. Özü də bu şirkətlərin hamısı planetin ən tanınmış istehsalçıları, həm də innovasiyalar, yüksək texnologiyalar üzrə ixtisaslaşmış transmilli korporasiyalar, dünya brendləri idi.

Dünyada telekommunikasiya avadanlıqlarının ən böyük təchizatçılarından biri olan ZTE, radioelektronika sahəsində ixtisaslaşan CETC, informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı şirkətlərdən sayılan “Huawei”, “China National Electric Engineering”, “China Poly Group” və digərlərinin rəhbərləri ilə aparılan danışıqların əsas məzmunu bu dünya nəhənglərinin Azərbaycanla işbirliyini genişləndirməyə sövq etmək idi.

İqtisadiyyat sahəsində mövcud olan əməkdaşlıq məhsuldar olsa da, əslində, mövcud olan potensial baxımından genişlənməsinə böyük ehtiyac var. Dövlətlər arasında ticarət dövriyyəsi 1,3 milyard dollar təşkil edir, son dövrlərdə Çindən idxal da 40 faiz artıb. Pekində ticarət nümayəndəliyi, Urumçi, Luco və Şanxayda Ticarət evləri açan Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizdə 120-dək Çin kapitallı şirkət qeydiyyata alınıb. Ötən dövr ərzində Azərbaycandan Çinə 1,7 milyard dollar, onlardan isə respublikamıza 800 milyon dollardan artıq investisiya yatırılıb. Ölkəmizdə dövlət vəsaiti hesabına icra edilən 600 milyon dollar dəyərində layihələrdə Çin şirkətləri iştirak edib. Bakı Çinin təşəbbüsünə qoşularaq, Asiya İnfrastruktur İnvestisiya Bankının həmtəsisçisi olub. Ölkəmizə səfər edən Çin turistlərinin sayında 53 faiz artımın olması da müsbət göstəricidir.

*Amma İlham Əliyev və Si Cinpin bunları yetərli saymırlar. Haqlıdırlar da.*

*Çünki Bakı ilə Pekini birləşdirən tək yollar, kəmərlər deyil, həm də eyni hədəflər, eyni məqsədlərdir...*

***İxtiyar HÜSEYNLİ,***
***“Azərbaycan”***

# Birinci vitse-prezident Mehriban Əliyeva Buzovnadakı 229 saylı uşaq bağçasında, Mərdəkandakı gimnaziyada və 32 saylı Laçın rayon məktəbində mövcud şəraitlə tanış olub

















Aprelin 25-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xəzər rayonunun Buzovna qəsəbəsində 229 saylı körpələr evi-uşaq bağçasında, Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyada və gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində mövcud şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva əvvəlcə Xəzər rayonunun Buzovna qəsəbəsində 229 saylı körpələr evi-uşaq bağçasına gəldi.

Bağçanın müdiri Ellada Səlimova məktəbəqədər təhsil müəssisəsi barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi. Bildirildi ki, bu bina 1836-cı ildə tikilib. 1957-ci ildən bina bağça kimi fəaliyyətə başlayıb. Burada sonuncu dəfə təmir işləri 2006-2007-ci illərdə həyata keçirilib.

Birinci vitse-prezident Mehriban Əliyeva uşaq bağçası-körpələr evindəki uşaqlarla görüşdü, onlarla söhbət etdi, balacaların bacarıqları ilə maraqlandı, arzularını soruşdu. Uşaqlar da Birinci vitse-prezidentin ətrafına toplaşaraq böyük məmnuniyyətlə öz istəkləri ilə bölüşdülər, məharətlərini nümayiş etdirdilər, rəqs edib, mahnılar oxudular, şeirlər söylədilər.

Məlumat verildi ki, 75 uşaq yerlik məktəbəqədər təhsil müəssisəsində balacaların təlim-tərbiyəsi ilə 27 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Dörd qrupdan ibarət bağçada 2 yaşdan 6 yaşadək uşaqlar tərbiyə olunur və ilkin biliklərə yiyələnirlər.

Birinci vitse-prezident yuxarı yaş qrupundakı uşaqların məktəbə hazırlığı ilə də maraqlandı.

Ölkəmizdə uşaq müəssisələrinin yüksək tələblər səviyyəsində qurulması istiqamətində dövlətin gördüyü işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verir. 2014-cü ilin fevral ayında fondun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı keçirilib və ölkədə yeni bağçaların inşasına ehtiyac olduğu müəyyənləşdirilib. Həmin vaxtdan fond ölkəmizdəki məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq bağçalarının inşası sahəsindəki fəaliyyətini daha da genişləndirib.

* * *

Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyaya gəldi.

Gimnaziyanın direktoru Ənvər Mustafayev məlumat verdi ki, 1960-cı ildə istifadəyə verilən təhsil ocağı indiyədək heç vaxt əsaslı şəkildə təmir edilməyib. Əvvəllər internat tipli olan təhsil müəssisəsi 2010-cu ildən xarici dillər təmayüllü gimnaziya kimi fəaliyyət göstərir. İki korpusdan ibarət məktəbdə 50 sinif otağı, idman və akt zalları, emalatxanalar mövcuddur.

Məktəbin sinif otaqları ilə yaxından tanış olan Mehriban Əliyevaya bildirildi ki, gimnaziyada 5-11-ci siniflər üzrə tədris aparılır. Müəssisədə 609 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə təqribən 70 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Məktəbdə ingilis, ərəb, fars və rus dilləri tədris edilir.

Azərbaycanın Birinci vitse-prezidenti şagirdlərlə söhbət etdi, onlara dərslərində uğurlar arzulayaraq dedi:

- Sizdə təhsilə, elmə, biliyə həvəs var. Siz Azərbaycanın ümidisiniz, ona görə yaxşı oxumalısınız. Gələcəkdə Azərbaycanın qurucuları siz olacaqsınız. Bilirəm, sizin məktəbinizin hər zaman yaxşı göstəriciləri olub. Uğurlar arzulayıram. Sağ olun.

Bildirildi ki, 2017-2018-ci tədris ilində məktəbi 49 məzun bitirib və onlardan 45-i Azərbaycanın ali məktəblərinə qəbul olunub. Qəbul imtahanlarında məktəb üzrə 3 nəfər 600-dən yuxarı bal toplayıb.

* * *

Daha sonra Birinci vitse-prezident Mehriban Əliyeva gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində mövcud şəraitlə də tanış oldu.

Məktəbin direktoru Samirə Həsənova Azərbaycanın Birinci vitse-prezidentinə məlumat verdi ki, təhsil ocağı 1993-cü ildən bu binada fəaliyyət göstərir. Gimnaziyanın ikinci korpusunun 3-cü mərtəbəsində yerləşən məktəbdə əsasən məcburi köçkün ailələrindən olan, həmçinin Xəzər rayonunda yaşayan uşaqlar təhsil alırlar.

Sinif otaqlarına baş çəkən Mehriban Əliyeva şagirdlərlə səmimi söhbət etdi, onlarla şəkil çəkdirdi.

Diqqətə çatdırıldı ki, hazırda məktəbdə 170 şagirdin təlim-tərbiyəsi ilə 25 müəllim, 10 texniki işçi məşğul olur. 2017-2018-ci tədris ilində məktəbi 9 məzun bitirib və onlardan 7-si yüksək nəticə göstərərək Azərbaycanın ali məktəblərinə qəbul olunub.

Xanım Mehriban Əliyeva Xəzər rayonunda məskunlaşan məcburi köçkünlər üçün yaradılan şəraitlə maraqlandı, dövlətin bu sahəyə hər zaman xüsusi diqqət yetirdiyini bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva Buzovna qəsəbəsindəki körpələr-evi uşaq bağçasında, Mərdəkan qəsəbəsindəki Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyada və gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində şəraitin yaxşılaşdırılması istiqamətində müvafiq tapşırıqlarını verdi.

# Hərbi Hava Qüvvələrinin aviasiya bazasının yeni komanda məntəqəsinin açılışı olub





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Hərbi Hava Qüvvələrinin (HHQ) şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HHQ-nin aviasiya bazasının yeni inşa edilən birləşmiş komanda məntəqəsinin açılışında iştirak edib və burada yaradılan şəraitlə tanış olub.

Əvvəlcə Müdafiə Nazirliyinin rəhbərliyi ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstünü ziyarət edərək qarşısına



gül dəstələri qoyub, xatirəsini yad edib.

General-polkovnik Zakir Həsənov və digər rəhbər şəxslər uçuşlara nəzarət və idarəetməni yerinə yetirən yeni naviqasiya sisteminə, HHQ-nin təlim-məşq poliqonunun tədris otaqlarına, eləcə də ərazidəki digər xidməti və inzibati obyektlərə baxış keçiriblər. Nazir zenit-raket komplekslərinin heyətlərinin, quru qoşunlarının hava hücumundan müdafiə bölmələrinin, radiotexniki bölmələrin texniki heyətlərinin məşğələlərini izləyib, S-125 zenit-raket kompleksinin idarəetmə məntəqəsində olub.

Müdafiə nazirinə məruzə edilib ki, Türkiyə, İsrail, ABŞ, Fransa, Böyük Britaniya, Norveç və bir sıra digər ölkələrin şirkətlərinin istehsal etdiyi müasir avadanlıqla təchiz edilən birləşmiş komanda məntəqəsinin əsas təyinatı müxtəlif növ hərbi aviasiya vasitələrinin uçuşlarının idarə edilməsini, həmçinin döyüş tapşırıqlarının dəqiq və effektiv icrasını fasiləsiz təmin etməkdir.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi üçün birləşmiş komanda məntəqəsinin fəaliyyətinə dair geniş brifinq keçirilib.

"Super Muşşak" təlim-məşq təyyarələrinə və trenajor zallarına baxış keçirən müdafiə naziri Ali Baş Komandanın ordu quruculuğu sahəsində qarşıya qoyduğu vəzifələri şəxsi heyətin diqqətinə çatdırıb və döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, hərbi pilotlarımızın peşəkarlığının artırılması ilə bağlı komandanlığa müvafiq tapşırıqlar verib.

# Müdafiə naziri ümumqoşun poliqonunda döyüş atışlı təlim məşqlərini izləyib







Azərbaycan Ordusunun 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq təlim mərkəzlərinin poliqonlarında bütün qoşun növlərinin cəlb edilməsi ilə keçirilən təlim-məşq prosesi davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonaya yaxın ərazidə yerləşən poliqonlardan birində olublar.

Müdafiə Nazirliyinin rəhbərliyi burada müxtəlif bölmələrin iştirakı ilə keçirilən döyüş atışlı təlim məşqlərini izləyib.

# Mədəniyyət naziri Cenevrədə beynəlxalq konfransda iştirak edib

Mədəniyyət naziri Əbülfəs Qarayev İsveçrənin Cenevrə şəhərində "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının 1999-cu ildə qəbul olunmuş İkinci Protokolunun 20-ci ildönümünə həsr olunmuş beynəlxalq konfransda iştirak edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, UNESCO və İsveçrə Hökumətinin təşkilatçılığı ilə keçirilən tədbirdə iştirak edən Azərbaycan nümayəndə heyətinin tərkibinə ölkəmizin UNESCO yanında daimi nümayəndəsi, səfir Anar Kərimov, Azərbaycanın Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Vaqif Sadıqov və İsveçrə Konfederasiyasındakı səfirimiz Xanım İbrahimova daxildir.

Nazir Əbülfəs Qarayev konfransın Nazirlər Panelində çıxışı zamanı konvensiyanın əhəmiyyətindən danışaraq konvensiya və onun 2 protokolunun Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra ilk qoşulduğu sənədlərdən olduğunu vurğulayıb. Ə.Qarayev qeyd edib ki, Azərbaycan tərəfindən 1954-cü il Haaqa Konvensiyası və onun Birinci Protokolu 1993-cü ildə, İkinci Protokolu isə 2001-ci ildə ratifikasiya edilib. Nazir Qobustan qayaüstü təsvirləri və İçərişəhərə 1954-cü il Haaqa Konvensiyasının İkinci Protokoluna əsasən hərbi münaqişələr zamanı "gücləndirilmiş mühafizə" statusu verildiyini və Azərbaycan tərəfindən bu abidələrin mühafizəsi ilə əlaqədar və qeyd olunan sənədlərin icrası məqsədilə UNESCO ilə birgə fəaliyyət aparıldığını, müvafiq ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. Qeyd edib ki, UNESCO ilə əməkdaşlığın inkişafında Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın böyük rolu var.

Nazir, həmçinin Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal olunması, həmin ərazilərdə etnik təmizləmə siyasətinin aparılması və 1954-cü il Haaqa Konvensiyasının müddəalarına zidd olaraq işğal olunmuş ərazilərdəki mədəni irs nümunələrinin Ermənistan silahlı qüvvələri tərəfindən dağıdıldığı barədə konfrans iştirakçılarına məlumat verib.

Daha sonra nazir konfrans iştirakçılarının suallarını cavablandırıb.

Tədbirdən sonra nazir Əbülfəs Qarayev konfransda iştirak edən bir sıra ölkənin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşüb.

# President Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçilərinin respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, aprelin 25-də Gəncə şəhəri, Goranboy, Qobustan, Samux və Zaqatala rayonlarında görüşləri keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar ilk növbədə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlət başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Humanizmə söykənən sosial müdafiə

## İkinci Dünya müharibəsi iştirakçıları da Prezidentin xüsusi qayğısı əhatəsindədir

*Əvvəli 1-ci səh.*

Yalnız cari il minimum pensiyanın məbləğinin artırılması 223 min təqaüdçünü, o cümlədən əlilliyə görə təqaüd alan 140 min insanı əhatə edib.

Prezident tərəfindən ilin əvvəlindən imzalanan fərman və sərəncamlar sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olanların, həmçinin Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar I qrup əlilliyi olan şəxslərin, eləcə də tələbələrin təqaüd və pensiyaları da artırılmışdır. Dövlət başçısının humanizmini "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında imzaladığı fərman da təsdiq edir.

İkinci Dünya müharibəsi bəşər tarixinin ən qanlı savaşlarından biridir. Bu müharibə milyonlarla insanın həyatına son qoymuş, şəhərləri, kəndləri dağıdıb viran etmişdir. Azərbaycan da SSRİ-nin tərkibində bu müharibənin iştirakçısı olmuşdur. Sovetlər birliyinin müharibədə qazandığı qələbədə xalqımızın, respublikamızın payı böyükdür. Azərbaycan həmin dövrdə ordunu neftlə təmin edərək qələbənin qazanılmasında müstəsna rol oynamışdır.

Azərbaycanda müharibə iştirakçıları bütün dövrlərdə dövlət tərəfindən qayğı ilə əhatə olunmuşlar. Həmin ənənə bu gün də davam edir. Dövlət başçısı bu istiqamətdə növbəti sərəncamını cari il aprelin 23-də imzalamışdır. "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medalla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" olan sərəncamda qeyd edilir ki, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1000, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad (indiki Sankt-Peterburq) şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik yardım verilsin.

Prezidentin sərəncamı bir daha göstərir ki, bütün təbəqələrdən olan vətəndaşlarımızın sosial müdafiəsi, onların rifahının yaxşılaşdırılması dövlətin daim diqqətindədir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan inkişafının yeni mərhələsindədir

## Respublikamızın gəlirlərinin artması vətəndaşların sosial rifahının gücləndirilməsi ilə bağlı görülən işlərə mühüm töhfələr verəcək

*Əvvəli 1-ci səh.*

Çevik və operativ tədbirlər, istehsalın və ixracın stimullaşdırılmasına yönələn addımlar, yoxlamaların aradan qaldırılması, vergi və gömrük sistemlərində, dövlət-sahibkar münasibətlərində yeni yanaşmaların tətbiqi, qeyri-neft sektoruna dövlət dəstəyinin artırılması nəticə etibarilə qlobal böhranın ən qısa zamanda dəf edilməsini şərtləndirdi. Bu sahədə ölkəmiz nümunə göstərməklə təsdiq etdi ki, yüksək siyasi iradə və əzm olan yerdə nəinki vəziyyətdən çıxmaq, hətta uğur qazanmaq da mümkündür.

Keçən il aprelin 18-də yeni müddətə Prezident seçilən cənab İlham Əliyev islahatların davam etdiriləcəyini bəyan etdi: *"Gələcək illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaq, iqtisadi islahatlar dərinləşəcək. İqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, bütün xoşagəlməz hallara son qoyulmalıdır. Bütün iqtisadi qurumlar dünyanın inkişaf etmiş ölkələrində olan müsbət təcrübəni tətbiq etməlidirlər. Belə göstərişlər verilibdir. Əminəm ki, Azərbaycan vətəndaşları, sahibkarlar yaxın gələcəkdə bizim islahatlarımızın müsbət təsirini görəcəklər".*

Ötən bir ildə ayrı-ayrı sahələr üzrə islahatlara start verilib. Təbii ki, İlham Əliyevin qeyd etdiyi kimi, iqtisadi qurumların fəaliyyətlində yeni təcrübələr, yanaşmalar tətbiq olundu. Bunun nəticəsidir ki, 2019-cu ilin yanvar-mart aylarında büdcə daxilolmaları əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə artdı. Belə ki, bu aylarda vergi və gömrük orqanları nəzərdə tutulan plandan əlavə 200 milyon manatdan çox vəsait topladılar. Bu da məhz sözügedən sahələrdə həyata keçirilən islahatların, şəffaflığın gücləndirilməsinin nəticəsidir.

Bu artımın müsbət təsirini isə ilk növbədə ölkə vətəndaşları hiss edir. Çünki artan büdcə vəsaiti Prezidentin təşəbbüsləri ilə vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəldilir. Məlum olduğu kimi, İlham Əliyevin yeni müddətə Prezident seçildikdən sonra ilk fərmanı şəhid ailələri ilə bağlıdır. Fərmana əsasən şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələr verilir. Ümumilikdə 12 min 268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Ötən dövrdə 6338 şəhidin 9276 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub.

Prezidentin yanvar ayında imzaladığı fərman və sərəncamlarla minimum əməkhaqları, əmək pensiyalarının minimum məbləği, bütün sosial müavinətlər, tələbə və doktorantlara verilən təqaüdlər əhəmiyyətli dərəcədə artırıldı. Minimum əməkhaqqı 180 manata, əmək pensiyalarının minimum məbləği 160 manata çatdırıldı. Bütövlükdə sosial sahədə qəbul edilən qərar və sərəncamlar 3 milyon nəfər vətəndaşa şamil edildi.

Bir neçə il əvvəl maliyyə bazarlarında baş vermiş məlum hadisələrdən sonra dollar hesabı ilə banklardan götürülən kreditlərin ödənilməsində çətinliklər yaranmışdı. Dövlət başçısının fevralın 28-də imzaladığı müvafiq fərmanla vətəndaşların bu narahatlığına da son qoyuldu. Fərmana əsasən, fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi qiymətləndirilərək Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına artıq manatla ödənilir.

Eyni zamanda devalvasiya nəticəsində yaranmış məzənnə fərqinə görə banklara edilən artıq ödənişlər də kompensasiya şəklində vətəndaşlara qaytarılır. Artıq bank olmayan kredit təşkilatları və bağlanan bankların müştəriləri "Azərpoçt"dan 3 milyon 393 min 809 manat vəsaiti nağd formada alıb. May ayının 1-dən etibarən isə kompensasiyası 500 manatdan yuxarı olan vətəndaşlar onlar üçün ayrılmış poçt şöbələrindən məbləğlərini qeyri-nağd formada, yeni kart vasitəsilə alıb nağdlaşdıra biləcəklər.

Aprelin 23-də Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edən Prezident İlham Əliyev sakinlərlə görüşdə ölkədə həyata keçirilən islahatlardan söz açdı, mühüm mesajlar verdi. Belə ki, Prezident minimum əməkhaqqının, minimum pensiyanın artırılmasının bundan sonra da davam etdiriləcəyini bəyan etdi: *"Minimum əməkhaqqı, minimum pensiya təxminən 40 faiz artırılıb. Mən bu yaxınlarda demişəm, artım faiz baxımından böyük olsa da, bizi qane edə bilməz. Çünki biz daha da yüksək həddə çatmalıyıq və bunu etmək üçün daha da fəal işləməliyik. Sosial müavinətlər orta hesabla iki dəfə, köçkünlərə, şəhid ailələrinə verilən müavinət, tələbə təqaüdləri 50 faiz artıb. Bir çox önəmli fərman və sərəncamlar imzalanmışdır ki, insanların rifah halını, biznes mühitini yaxşılaşdırır və bu istiqamətdə işlər davam etdiriləcək. Çünki minimum əməkhaqqı, minimum pensiyanın qaldırılması daimi proses olmalıdır".*

Prezidentin qeyd etdiyi kimi, Azərbaycan indi inkişafın yeni mərhələsindədir və bundan sonra iqtisadi artım çox sürətli olacaq. Respublikamızın başlatdığı yeni islahatlar, o cümlədən enerji kəmərlərinin işə düşməsi nəticəsində Azərbaycan yeni dövrə qədəm qoyub. İqtisadi islahatlar getdikcə daha çox nəticə verir. Gələn ildən isə Azərbaycan qazı Avropa bazarlarına çıxarılacaq. Bu o deməkdir ki, qarşıdakı illərdə respublikamızın gəlirlərində ciddi artımlar baş verəcək. Bu da, öz növbəsində, vətəndaşların sosial rifahının gücləndirilməsi ilə bağlı görülən işlərə mühüm töhfələr verəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Atəşkəs rejimi 30 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Kəngərli, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Leyla ABDULLAYEVA: "Hər hansı qurumun "dövlət" kimi tanınması ABŞ-da ştat qanunverici orqanının səlahiyyətləri xaricindədir"

ABŞ-ın Kolorado ştatının Senatı tərəfindən qondarma "erməni soyqırımı" ilə bağlı qətnamənin qəbulu və bu qətnamədə ölkəmizin işğal edilmiş torpaqlarında yaradılmış qondarma qurumun tanınması ilə bağlı məlumat yayılıb.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bu məsələyə münasibət bildirərək deyib: "Aprelin 24-də Kolorado ştatının 35 nəfərlik Senatı qondarma erməni soyqırımı ilə bağlı qətnamə qəbul edib. Bu qətnamədə Ermənistan və qondarma "Artsax"ın Türkiyə və Azərbaycan tərəfindən "blokada"sına istinad edilir və guya ki, Naxçıvan Muxtar Respublikasında erməni "xristian irsi"nin mədəni soyqırımının törədildiyi iddia edilir.

Qeyd etmək istərdik ki, bəzi media nümayəndələri qətnamədə işğal altındakı torpaqlarımızda yaradılmış qondarma quruma istinadı guya həmin qurumun tanınması kimi təqdim etməyə cəhd etmişlər. Vurğulamaq istərdik ki, sözügedən qətnamənin mətni onu ifadə etmir və hər hansı bir qurumun "dövlət" kimi tanınması, ümumiyyətlə ştat qanunverici orqanının səlahiyyətləri xaricindədir.

Onu da bildirmək istərdik ki, praktiki və hüquqi əhəmiyyəti olmayan belə simvolik qətnamələrin ştatlar üçün də hər hansı bir nəticə doğurmadığı üçün qısa prosedurla qəbulu mümkün olur.

ABŞ-dakı səfirliyimiz tərəfindən Kolorado Senatının rəhbərliyi və hər bir üzvünə ölkəmizlə bağlı yol verilmiş ciddi təhriflər və yanlışlıqların aradan qaldırılmasına çağıran məktublar göndərilib və müvafiq görüşlərin keçirilməsi nəzərdə tutulub.

# XİN: "Rəsmi Bakı Azərbaycan-Gürcüstan sərhədinin delimitasiyası prosesini ən qısa müddətdə başa çatdırmağa hazırdır"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Keşikçidağ monastır kompleksinə girişin məhdudlaşdırılması barədə Gürcüstan mediasında məlumatın yayılmasına münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva bununla bağlı deyib: "Xatırlatmaq istərdim ki, Keşikçidağ (David Qareci) monastır kompleksi Azərbaycan-Gürcüstan dövlət sərhədinin keçdiyi təpələr sırası boyunca təxminən 25 kilometr məsafədə səpələnmiş bir çox tarixi, memarlıq və dini obyektlərdən ibarətdir və həmin kompleks təpələr sırası ilə iki hissəyə bölünür. Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası beynəlxalq təcrübədə tətbiq edilən qaydalara uyğun olaraq qarşılıqlı əlaqələndirmə prosedurları əsasında mövcud ikitərəfli formatlar çərçivəsində həll olunur.

Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiya olunmasının tərəfdarı olub. Azərbaycan bu prosesi ən qısa müddət ərzində başa çatdırmağa hazırdır".

# Akademik Zərifə Əliyevanın adı Azərbaycanda hər zaman fəxrlə, sonsuz qürur hissi ilə səslənir

Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının kollektivi aprelin 25-də Fəxri xiyabanda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyub.

Sonra müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.





* * *

Yeni Azərbaycan Partiyasının (YAP) Qadınlar Şurası görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümü münasibətilə tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə akademik Zərifə Əliyevanın həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

YAP Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva akademik Zərifə xanım Əliyevanın elmi nailiyyətlərindən, onun peşəkar həkim, fəal ictimai xadim kimi fəaliyyətindən danışıb. Bildirib ki, Zərifə Əliyeva həmvətənlərinin qayğısına qalan humanist insan idi. Onun həyat ideyaları və şəxsiyyəti bu gün də müasir Azərbaycan gəncliyi üçün əsl nümunədir. Azərbaycan xalqına xas müsbət keyfiyyətlər, ali dəyərlər Zərifə Əliyevanın şəxsiyyətində cəmləşmişdi. İnsanlara nur bəxş edən, qayğıkeşliyi, nəcibliyi ilə könüllərdə özünə əbədi yer qazanan Zərifə xanım tibb elminin ən uca pillələrinə yüksəlməklə yanaşı, həm də nümunəvi bir həyat yolu keçib.

Azərbaycan Respublikasının Prezidenti Katibliyinin rəisi, Prezidentin köməkçisi Dilarə Seyidzadə Zərifə xanım Əliyevanın keçdiyi zəngin həyat yolundan danışıb, onunla bağlı xatirələrini bölüşüb. Bildirib ki, Zərifə xanımın həyatı hər bir azərbaycanlı üçün nümunədir. O, əsl azərbaycanlı xanım nümunəsidir. Zərifə xanımı yaxından tanıyanlar onun ləyaqətli, insanpərvər, çox xeyirxah, mehriban bir qadın olduğunu yaxşı xatırlayırlar. Zərifə xanım hamının dərdini, problemini özününkü hesab etməyi bacarırdı. Çünki hər şeydən əvvəl insanları sevirdi. O, həm ailəsində, həm də peşəsində nümunə göstərirdi. Bu müdrik, ziyalı, alicənab qadının keçdiyi şərəfli ömür yolu hər bir azərbaycanlı qadın üçün məktəbdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, akademik Zərifə Əliyeva təkcə respublikamızda deyil, beynəlxalq aləmdə də tanınmış alim, ziyalı, ictimai xadim kimi dəyərləndirilir. Onun fəaliyyəti bizim üçün əsl nümunədir. Görkəmli alim öz qayğıkeşliyi və səmimiyyəti ilə onu əhatə edən insanların rəğbətini, ehtiramını qazanmışdı. İnkişaf etdirdiyi elm sahəsinin davamçıları bu gün də alimin irsindən faydalanırlar. Zərifə xanım Əliyevanın adı Azərbaycanda hər zaman fəxrlə, sonsuz qürur hissi ilə səslənir.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı deyib ki, akademik Zərifə Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yazdığı fundamental əsərlər nəinki Azərbaycan, eləcə də dünya tibb elminin tarixində yeni səhifələr açıb. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir. Zərifə xanım elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyərək, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsi və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva çıxış edərək böyük alim və insan Zərifə xanım Əliyevanın qəlbən təmiz, ruhən nəcib, sözün həqiqi mənasında, peşəsinin vurğunu olduğunu vurğulayıb. O öz elmi-praktik yaradıcılığı, təcrübəsi, axtarışları və ictimai fəaliyyəti ilə oftalmologiya elminə əvəzsiz töhfələr verib, təmasda olduğu hər bir insanın xatirində silinməz iz buraxıb.

YAP Gəncə şəhər təşkilatı Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Pərvin Kərimzadə gözəl insan, qayğıkeş ana olan Zərifə xanım Əliyevanın sənətinə vurğun, yüksək mənəvi-etik davranışa malik həkim və pedaqoq kimi həmişə xalqımızın qəlbində yaşayacağını bildirib. O qeyd edib ki, Zərifə Əliyeva yaxşı ana, vəfalı ömürgün yoldaşı, intellektual keyfiyyətləri cəm halda özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş həkim-oftalmoloq, bütün müsbət keyfiyyətləri özündə cəmləşdirən bir insan kimi yaddaşlara əbədi həkk olunub.

# Nəsiminin yubileyi Budapeştdə qeyd olundu

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycanın Macarıstandakı Səfirliyi, Azərbaycan Milli Kitabxanası və Budapeştdəki Yunus Əmrə İnstitutu ilə birlikdə Budapeştdə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirmişdir. Tədbir Yunus Əmrə İnstitutunun Budapeştdəki binasının foyesində Azərbaycan Milli Kitabxanasının fondlarında mühafizə olunan Nəsiminin əsərlərindən və onun haqqında ədəbiyyatdan ibarət geniş kitab sərgisinin nümayişi ilə açıldı. Sərginin açılışından sonra İmadəddin Nəsimi haqqında qısa sənədli filmin nümayişi oldu.



Yunus Əmrə İnstitutunun direktoru Yakub Gül Azərbaycan nümayəndə heyətinin üzvlərini və bütün qonaqları salamlayaraq İmadəddin Nəsimi kimi böyük söz adamının və dahi şairin yubiley tədbirlərinə evsahibliyi etməsindən böyük şərəf duyduğunu söylədi.

Azərbaycanın Macarıstandakı səfiri professor Vilayət Quliyev Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən, respublikamızda və onun hüdudlarından kənarda "Nəsimi ili" çərçivəsində bir sıra tədbirlərin keçirildiyini bildirdi. O, böyük Azərbaycan şairi Nəsiminin Azərbaycan ədəbiyyatı tarixində tutduğu yerdən və mövqedən danışaraq filosof şair və sufilik təriqəti ənənələrinin ideoloqlarından biri olduğunu xüsusi vurğuladı. Səfir İ.Nəsiminin Azərbaycanın Şamaxı bölgəsində doğulub boya-başa çatdığını, bütün Şərqi Anadolunu, Ərəbistanı gəzib dolaşaraq öz dərin fəlsəfi yüklü və bəşəri ideyalarla zəngin poeziyası ilə hamının qəlbini riqqətə gətirdiyini, şeirlərinin Azərbaycanda, Türkiyədə, Şərqi Anadoluda, İranda, Suriyada dillər əzbəri olduğunu və hamı tərəfindən sevildiyini söylədi. V.Quliyev bildirdi ki, dahi Nəsiminin 650 illik yubiley tədbirinin məhz Yunus Əmrə İnstitutunda keçirilməsi təsadüfi xarakter daşımır. Burada macar türkoloqlarının iştirakı və maraqlı məruzələrlə çıxış etməsi də Azərbaycan və macar xalqları arasında dərin köklərə malik sıx əlaqələrin olmasına və bu ənənənin indi də hər iki ölkənin rəhbərlərinin səyləri ilə uğurla davam etməsinə dəlalət edir.

Tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev öncə bu tədbirin keçirilməsinə şərait yaratdığı üçün Türkiyə səfirliyinin, Yunus Əmrə İnstitutunun rəhbərliyinə təşəkkürünü bildirdi və böyük Azərbaycan şairi haqqında danışarkən xüsusi vurğuladı ki, Nəsiminin 600 illik yubileyi ilk dəfə Sovetlər birliyi dövründə, 1973-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən keçirilmişdir və bu yubiley tədbirləri nəinki Bakıda və bütün Azərbaycanda, hətta Moskvada və Parisdə UNESCO-nun qərargahında da qeyd olunmuşdur. Bütün bunlar Heydər Əliyevin Azərbaycan ədəbiyyatına, mədəniyyətinə və onun görkəmli şəxsiyyətlərinə verdiyi böyük dəyərin bariz nümunəsi idi. Bu ənənənin uğurlu davamı olaraq Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il noyabrın 15-də dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinin geniş şəkildə və yüksək səviyyədə keçirilməsi barədə tarixi sərəncam imzalamış və 2019-cu ilin "Nəsimi ili" elan olunması barədə qərar vermişdir. Bütün bunlar müstəqil Azərbaycan Respublikasında mədəniyyətə, ədəbiyyata və onun görkəmli nümayəndələrinə, milli mənəvi dəyərlərimizə verilən qiymətin və diqqətin nümunəsi hesab olunmalıdır.

Macarıstanın Türkiyədəki keçmiş səfiri, Türk Şurasının Macarıstan ofisinin rəhbəri, türkoloq-alim Yanoş Hovari türk dünyasının ortaq mədəniyyətinin və ədəbiyyatının təbliğində belə yubiley tədbirlərinin xarici ölkələrdə keçirilməsinin böyük əhəmiyyət kəsb etdiyinə diqqət çəkmişdir.

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov çıxışında görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin əsərlərinin nəşrindən və onun əlyazmalarının yayılma arealından danışdı. O, Nəsiminin əsərlərinin keçmiş sovet dövlətinin ideoloji və antimilli siyasəti ilə əlaqədar dünya miqyasında az nəşr olunduğunu, yalnız ümummilli lider Heydər Əliyevin çox ciddcəhdləri nəticəsində şairin 600 illik yubileyi çərçivəsində əsərlərinin nəşr edildiyini, haqqında kitablar yazıldığını, bədii, tammetrajlı və qısametrajlı sənədli filmlər çəkildiyini, rayonlara, küçələrə, məktəblərə, mədəniyyət ocaqlarına adının verildiyini, abidəsinin ucaldıldığını diqqətə çatdırdı. Bildirdi ki, Nəsimi yaradıcılığına ikinci nəfəs 2018-2019-cu illərdə gəldi. Belə ki, 2018-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə tarixdə ilk dəfə Beynəlxalq Nəsimi Festivalı, dünyanın onlarca ölkəsindən gələn nəsimişünas alimlərin iştirakı ilə elmi konfranslar, simpoziumlar, kitab təqdimatları və sərgiləri keçirildi. Həmin il noyabrın 15-də Azərbaycan Prezidenti Nəsiminin 650 illik yubileyinin keçirilməsi barədə sərəncam imzaladı. Prezidentin 2019-cu il 15 yanvar tarixli sərəncamı ilə 2019-cu il "Nəsimi ili" elan edildi. Bu tədbirlər də həmin sərəncama əsasən keçirilir. Prezidentin sərəncamı ilə Nəsiminin ikicildlik "Seçilmiş əsərləri" iki dəfə - 2004-cü və 2013-cü illərdə 25 min tirajla çap olunmuşdu. "Nəsimi ili"ndən də bizlərə cild-cild yeni yazılacaq və çap olunacaq kitablar qalacaq.

K.Tahirov bildirdi ki, Nəsimi Azərbaycanda doğulub boya-başa çatsa da, Türkiyədə, Anadoluda, İranda və Suriyada da yaşamışdır və ona görə də onun əlyazmaları bu arealda daha çox yayılaraq dillər əzbəri olmuşdur. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hazırda dünya kitabxanalarının və muzeylərinin fondlarında Nəsiminin 50-dən artıq əlyazması saxlanılır. Bunlardan 30-u Türkiyədə, 11-i İranda, Çexiyada, ABŞ-da, İngiltərədə, Vatikanda, Rusiyanın Sankt-Peterburq şəhərində, Avstriyada və digər ölkələrdədir. Hazırda Azərbaycan Milli Kitabxanası Mədəniyyət Nazirliyi ilə birlikdə ilk növbədə Nəsiminin dünya kitabxanalarında saxlanılan əlyazmalarının, sonrakı illərdə isə digər görkəmli şairlərimizin əlyazmalarının digital surətlərinin Azərbaycan Milli Kitabxanasına toplanması layihəsi üzərində işləyir. İlin sonunda İmadəddin Nəsimiyə həsr olunmuş biblioqrafiya da nəşr ediləcəkdir.

Tədbirdə Türkiyə Cümhuriyyətinin Macarıstandakı səfiri Əhməd Akif Oktay da iştirak edib.

Tədbirin bədii hissəsində "Nəsimi" tammetrajlı bədii filmindən fraqmentlər göstərildi, türkiyəli və azərbaycanlı ifaçılar tərəfindən Nəsiminin şeirlərinə yazılmış musiqilər ifa olundu.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Bakıda "Dinlərarası dialoq və radikalizmlə mübarizə" mövzusunda beynəlxalq konfrans keçirilir





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Avropa İttifaqının Bakıdakı nümayəndəliyinin və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Dinlərarası dialoq və radikalizmlə mübarizə" mövzusunda ikinci beynəlxalq konfrans öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, ADA Universitetində keçirilən tədbirdə əvvəlcə Yeni Zelandiyada və Şri-Lankada terror aktları nəticəsində həyatını itirmiş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın moderatoru olan Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbər müavini Denis Daniilidis bildirib ki, son günlər Yeni Zelandiyada və Şri-Lankada baş verən hadisələr dini radikalizmlə mübarizənin hələ də başa çatmadığını göstərir. Bu baxımdan bu cür konfransların əhəmiyyətinə toxunan D.Daniilidis dini ayrı-seçkiliyin gücləndiyi müasir dövrdə Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini, eləcə də mədəniyyətlər və dinlər arasında əməkdaşlıq təcrübəsini dünya ölkələri ilə bölüşmək niyyətini yüksək qiymətləndirib.

Konfransda çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı mövzunun aktuallığını vurğulayıb. Bildirib ki, Yeni Zelandiya, Şri-Lankada törədilən terror aktlarına qarşı mübarizə bəşəriyyətin qarşısında duran ən əsas məsələlərdəndir. Müxtəlif dinlərin və mədəniyyətlərin birgəyaşayışına nümunə olacaq ölkələr arasında Azərbaycan çox mühüm yer tutur. Ölkəmizdə multikultural dəyərlər dövlət səviyyəsində qorunur. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə tolerant dəyərlər ciddi mühafizə olunur. Azərbaycanda bütün dini inanclara, onların mənsublarına hörmətlə yanaşılır. Ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, burada xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq şəraitində birgə yaşayırlar. Eyni zamanda, ölkə ərazisində mövcud olan İslam dini abidələri ilə yanaşı, digər dinlərə aid ibadət ocaqları maddi-mənəvi irs kimi qorunub saxlanılır. Azərbaycanda 33 qeyri-müsəlman dini icması fəaliyyət göstərir.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankaukas belə konfransların keçirilməsinin zəruriliyini qeyd edib. Bildirib ki, artıq ikinci dəfədir keçirilən bu konfrans tərəflərin müsbət təcrübə qazanmasına imkan yaradır. Nümayəndəliyin rəhbəri Yeni Zelandiyada və Şri-Lankada baş vermiş dəhşətli hadisələri xatırladaraq deyib ki, bu cür hadisələrin qarşısının alınması üçün hər kəs səylərini birləşdirməlidir.

Azərbaycanla dini sahədə əməkdaşlığa toxunan Kestutis Yankauskas vurğulayıb ki, Azərbaycandakı dini liderlərin Brüsselə səfəri təşkil edilib. O, həmçinin mayın əvvəlində Bakıda "Imagine" tolerantlıq festivalının keçiriləcəyini deyib və bu tədbirin müxtəlifliyə və tolerantlığa töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, ekstremizmin qarşısını almaq üçün hər bir ölkə öz təcrübəsini bölüşməli, təbliğat aparmalıdır. Bundan başqa, dini radikalizmin yaranmasının səbəbləri araşdırılmalıdır. Əks halda, nəticə əldə etmək çətin olacaq. Əgər bir ölkənin qanunvericiliyində dini dözümlülük, dini etiqad azadlığının qorunması məsələləri öz əksini tapmayıbsa, həmin ölkədə dini radikalizm meyilləri olacaq. Azərbaycanın Konstitusiyasında dini etiqad azadlığının qorunması ilə bağlı müddəalar öz əksini tapıb. Milli Məclisdə dini ekstremizmin aradan qaldırılması ilə bağlı qanun qəbul olunub.

Siyavuş Novruzov deyib ki, dini etiqad azadlığının təmin edilməsi vacibdir. Bunun əksi dini radikalizmə gətirən əsas səbəblərdən biridir. Din xadimləri bu məsələdə aparıcı rol oynamalıdır. Onlar təbliğat apararaq insanları qardaşlığa, bərabərliyə çağırmalıdır.

Vurğulanıb ki, hər hansı terrorçu qruplaşmanı dinlə əlaqələndirmək olmaz. Dünyada 60-dan çox müxtəlif terror qrupu var. Onların əksəriyyətinin adı da məlumdur və heç biri dinlə əlaqəli deyil.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə qeyd edib ki, konfransın bu təhsil ocağında keçirilməsi heç də təsadüfi deyil. Çünki gənclər arasında dini tolerantlığın təbliği mühüm əhəmiyyət kəsb edir. O diqqətə çatdırıb ki, ADA universitetində təhsil alan gənclərin müxtəlif dinlərə aid ibadətgahlarla tanış olmasına, eləcə də onlar arasında multikultural dəyərlərin təbliğinə xüsusi önəm verilir.

Fransa hökumətinin dini işlər üzrə məsləhətçisi Jan-Kristof Posel bildirib ki, dünyada terrorçuluqdan, radikallıqdan sığortalanan ölkə yoxdur. Din anlayışı ilə dini dona bürünmüş radikalizm arasında fərq qoyulmalıdır. Dinlərarası dialoqun vacibliyinə toxunan Fransa rəsmisi bunun əks tərəflərin fikirlərini, istəklərini, fərqlərini üzə çıxarmağa imkan yaratdığını deyib. O, eyni zamanda, dövlətin dini nəzarətdə saxlamasının arzu olunmadığını, belə müdaxilənin dinin mahiyyətindəki təməl hüquq və azadlıqları poza biləcəyini dilə gətirib. Qeyd edib ki, zorakılıqla din arasında fərq qoyulmalıdır. Dinlər bu məsələdə günahsızdır. Biz gənclərin dini düzgün öyrənmələri üçün yollar axtarmalıyıq. Bizim cəmiyyətlərimiz plüralist cəmiyyətlərdir, müxtəlif konfessiyalardan ibarətdir. Dini konfessiyaları birgə yanaşı yaşamağa təşviq etmək lazımdır. Biz bu fərqlilikləri problem kimi yox, zənginliyin nümunəsi kimi qəbul etməliyik.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Qəmər Cavadlı idarənin tarixi, hüquqi statusu və fəaliyyəti barədə məlumat verib. Bildirib ki, QMİ 1823-cü ildə rəsmi dini təşkilat kimi yaranıb. Bu illər ərzində QMİ-nin ən səmərəli fəaliyyəti müstəqillik dövrünə təsadüf edir. Azərbaycan müstəqillik qazanandan sonra dövlət-din münasibətləri də inkişaf edib. O, eyni zamanda, QMİnin fəaliyyətində mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası İdarəsinin nümayəndəsi Konstantin Pominov, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Melih Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete Azərbaycanın çoxmillətli və çoxdinli ölkə olduğunu, bu ölkənin milli siyasətinin müxtəlif millətlərin, etnik qrupların, dini azlıqların birgə yanaşı yaşaması, dözümlülük prinsipləri əsasında müəyyənləşdirildiyini söyləyiblər. Qeyd olunub ki, Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma olmayıb. Burada qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, həmçinin dini münasibətlər mövcuddur.

Konfrans işini aprelin 26-da "Dini icmalar sülhün carçısı kimi", "Dünyəvi dövlətlərdə dövlət-din münasibətləri", "Zorakı ekstremizmin qarşısının alınmasında maarifləndirmə tədbirləri" mövzularında panellərlə davam etdirəcək.

# AZƏRTAC 15-ci Avropa Gənclər Yay Olimpiya Festivalının rəsmi media tərəfdaşı olub

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) və 15-ci Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi (EVENTOC) arasında rəsmi media tərəfdaşlığı haqqında müqavilə imzalanıb.

Müqaviləni AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və EVENTOC-un korporativ direktoru Elçin Səfərov imzalayıblar.

Tərəfdaşlıq müqaviləsinə əsasən, AZƏRTAC-ın rəsmi saytında festival haqqında bütün məlumatların yerləşdiriləcəyi "Bakı-2019" adlı xüsusi bölmə yaradılacaq. Agentlik Avropa Gənclər Yay Olimpiya Festivalını yüksək səviyyədə işıqlandırmaq üçün təcrübəli idman jurnalistlərini, həmçinin fotomüxbir və operatorları cəlb edəcək. Oyunlarla bağlı informasiyalar oxuculara 8 dildə, videoxəbərlər isə Azərbaycan və ingilis dillərində təqdim olunacaq.

EVENTOC-un korporativ direktoru Elçin Səfərovun sözlərinə görə, bu, yerli mətbuat qurumları ilə ilk tərəfdaşlıq müqaviləsidir və həm Azərbaycanda, həm də dünyada Avropa Gənclər Yay Olimpiya Festivalının təbliğində mühüm rol oynayacaq. Habelə festivalla bağlı xəbərlərin xarici KİV vasitəsilə də yayılmasına şərait yaradacaq.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov agentliyin Azərbaycanda keçirilmiş bir çox idman tədbirlərinin, o cümlədən ilk Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" Azərbaycan Qran-prisi və digər beynəlxalq yarışların işıqlandırılmasında böyük təcrübəyə malik olduğunu vurğulayıb. Qeyd edib ki, AZƏRTAC əvvəlki tədbirlərdə qazanılmış təcrübəyə əsaslanaraq Avropa Gənclər Yay Olimpiya Festivalını da yüksək səviyyədə işıqlandırmaq üçün əlindən gələni edəcək.

İdarə heyətinin sədri onu da bildirib ki, bu gün AZƏRTAC 150-dək xarici informasiya agentliyi ilə mütəmadi xəbər mübadiləsi aparır və 21 ölkədə müxbir məntəqəsi var. Bu, keçiriləcək festival haqqında informasiyaların geniş coğrafiyada yayılmasında və böyük auditoriyaya çatdırılmasında mühüm rol oynayacaq.

Xatırladaq ki, Avropa Gənclər Yay Olimpiya Festivalı iyulun 21-27-də Bakıda keçiriləcək. Yarışlarda iştirak etmək üçün Azərbaycana 50 ölkədən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti gələcək. Atletlər idmanın on növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

# Gənclər bu günümüz, sabahımız, uğurlu gələcəyimizdir



Yeni Azərbaycan Partiyası Gənclər Birliyi Yasamal rayon təşkilatının V hesabat-seçki konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov partiya üzvləri arasında çoxluq təşkil edən gənclərin hesabat dövründəki fəaliyyətindən bəhs edərək bildirib ki, siyasi hazırlıqları ilə fərqlənən yeni nəslin nümayəndələri partiyanın işində fəallıq göstərirlər. Bu gün Azərbaycan gəncləri müstəqil dövlətimizin fəal qurucularıdır. Bu, böyük xoşbəxtlikdir. Hər bir azərbaycanlı kimi, gənclərimiz də belə qüdrətli bir ölkənin vətəndaşları olduqları üçün fəxr edir, qürur duyurlar. Azərbaycanın hərtərəfli inkişafında fəallıq göstərən gənclərimiz iqtisadiyyatımızın müxtəlif sahələrində çalışmaqla siyasi hazırlıqları ilə də fərqlənir, ölkəmizin ümumi inkişafına böyük töhfələr verirlər. Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir.

YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin sədri Bəxtiyar Nəbiyev hesabat məruzəsi ilə çıxış edərək gənclərlə aparılan işlərdən ətraflı danışıb. Bildirib ki, paytaxtın intellekt mərkəzlərindən sayılan Yasamal rayonunda ali təhsil ocaqları çoxluq təşkil etdiyindən Gənclər Birliyinin üzvləri siyasi hazırlıqları, təhsildə qazandıqları uğurları ilə də seçilirlər. YAP Yasamal rayon təşkilatı ətrafında 31500 üzvü birləşdirir. Onlardan 12300 nəfərini gənclər, 4200 nəfərini qadınlar təşkil edir. Təkcə ötən il 961 gənc rayon təşkilatına üzvlüyə qəbul olunub. Partiyanın qurucusu, ulu öndər Heydər Əliyevin gənclərə göstərdiyi qayğını və diqqəti bu gün daha yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyevə ən layiqli cavabımız dövlət başçısının ətrafında sıx birləşərək onun siyasətini əməli işimizlə doğrultmaqdır.

Hesabat məruzəsi ətrafında çıxış edən gənclərdən Anar Cəfərov, Vəfa Mürsəlzadə, Bayram Aslanov bildiriblər ki, biz gənclər təhsildə, şəxsi həyatımızda, çalışdığımız sahələrdə üzərimizə düşən vəzifələri yerinə yetirməklə üzvü olduğumuz YAP-ın ideyalarına sadiqliyimizi dövrün çağırışlarına əməli fəaliyyətimizlə bildirəcəyik.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Sədr müavini Bahar Muradova gənclərə xitab edərək onları ulu öndər Heydər Əliyev ideyalarına sadiq yenilməz qüvvə adlandırıb. O deyib: “YAP-ın üzvü olmaq elə ulu öndərin ideyalarını davam etdirən ziyalı potensialı deməkdir. Azərbaycan gəncliyi ölkəmizin diplomatik uğurlarının qazanılmasında da iştirak edir. Beynəlxalq idman yarışlarında qələbə qazanan gənclərimizin Azərbaycan bayrağını yüksək pillələrdə dalğalandırması bütünlükdə gəncliyə göstərilən diqqətin nümunəsidir. Partiyamızın sədri cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrdən biri də yeni təfəkkürlü insan yetişdirmək, gənclərimizi azərbaycançılıq ideyalarına sadiqlik ruhunda tərbiyə etməkdir. Sevindirici haldır ki, bugünkü gəncliyimiz bütün çağırışlara cavab verə biləcək səviyyədə hazırlıqlıdırlar. Sizlərin bütün sahələrdə qazandığınız uğurlar bütünlükdə Azərbaycanın daha da qüdrətlənməsinə xidmət edir”.

Bahar Muradova mövcud olan potensialdan örnək götürən gəncləri daha inamlı olmağa, sabaha ümidlə baxmağa çağıraraq onlara dövlətçilik işlərində, şəxsi həyatlarında uğurlar arzulayıb.

YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, bu gün Azərbaycan gəncliyi partiyanın proqram və nizamnaməsindən irəli gələn vəzifələri şərəfli işi ilə doğruldur, bu adı ləyaqətlə daşıyır. Dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı partiyada təmsil olunan gənclərimiz fəallıqlarını artırır, vətənə layiqli xidmətləri ilə fərqlənirlər. Yasamal rayonunda yaşayan gənclərin partiyanın rayon təşkilatında çoxluq təşkil etməsi YAP-a ümumxalq inamının nəticəsidir. Gənclərimiz cəmiyyətimizin aparıcı qüvvəsi kimi ictimai işlərdə də fəallıq göstərirlər. Ərazi və əhali baxımından çox böyük olmasa da, ölkəmizin qüdrətli dövlət kimi dünya birliyində tanınmasında xüsusi rolu və xidmətləri olan gənclərimiz minlərlədir. Azərbaycanın həmmüəllifi olduğu, qitələri birləşdirən qlobal enerji və nəqliyyat layihələrinin reallaşması təkcə region üçün deyil, bütünlükdə dünya dövlətləri üçün böyük əhəmiyyət daşıyır. Gənclər fəallıqları ilə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, Azərbaycanın uğurlarına qısqanclıqla baxan mənfur niyyətli qüvvələrə siyasi hazırlıqları, elmdə, iqtisadiyyatda qazandıqları nailiyyətlərlə cavab verməlidirlər. Onlar yaramaz və yarıtmaz milli xəyanətkarlarımızın təxribatlarına sosial şəbəkələrdə fəallıq göstərməklə cavab verməlidirlər.

Konfransda təşkilati məsələlərə baxılıb. İlqar Quliyev YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Gənclər Birliyinin 25 nəfərdən ibarət İdarə Heyəti, 61 nəfər Şura üzvü seçilib. YAP Respublika Gənclər Birliyinin konfransında iştirak edəcək gənclər müəyyənləşib.

# Antimillilərin qərəzləri və ya xilas ola bilmədikləri mərəzləri

Respublikada gənclər siyasəti, bu zümrənin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsipləri əsasında xalqımızın tarixi-mədəni irsinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması diqqət mərkəzində saxlanır. Çünki müstəqil respublikamızın inkişafı ilk növbədə gənc nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından daha çox asılıdır.

Fiziki cəhətdən sağlam, məntiqi təfəkkürə malik vətənpərvər gənclər bizim gələcəyimiz, ümidlərimizdir. Gələcəyimizin isə etibarlı əllərdə olması üçün bütün qüvvələr səfərbər edilir, kompleks tədbirlər həyata keçirilir. Valideynlər, təhsil müəssisələri, elm ocaqları birlikdə bu mühüm və əhəmiyyətli məsələnin həllində böyük səy göstərirlər. Belə olan halda ifrat radikal müxalifətin gənclərimizi belə yoldan uzaqlaşdıraraq, meydan təfəkküründə saxlamalarına nə ad verəsən?!

Gənclərin potensialını mənfi emosiya ilə yükləyib, siyasi ambisiyalarına qurban verməkdən çəkinməyənlər də var ki, özlərini radikal müxalifət adlandıraraq ölkədə xaos yaratmağa səy göstərirlər.

Belə ki, destruktiv qüvvələr paytaxtda mitinq keçirmək adı altında sosial şəbəkələrdə çağırışlar edir, ölkədə aparılan dinc quruculuq işlərinə kölgə salmağa çalışır, bundan ötrü hətta köhnə fotoşəkillərdən də istifadə etməkdən çəkinmirlər.

Bu günlərdə sosial mediada İçəri şəhərin sökülüb-dağıldığını iddia edən şəkillərin paylanması da məhz hakimiyyətə qarşı qərəzli mövqedən savayı bir şey deyil. Ən azı ona görə ki, İçəri şəhər bu gün nəinki Bakı sakinlərinin, eləcə də ölkəmizin regionlarından gələn qonaqların, xarici turistlərin ən çox üz tutduqları ziyarət və istirahət yeridir.

Məhz həmin məsələ ilə bağlı “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi mediatur təşkil edərək, məsələyə aydınlıq gətirib. Bakı Fotoqrafiya Evində, Qoşa qala qapısı ətrafında orta əsrlərin yadigarı olan Köhnə hamam və qala divarları ətrafında görülən işlərdən ətraflı söz açılıb. Mətbuat nümayəndələri XVII əsrə aid yeraltı hamamın konservasiyası ilə tanış olublar. Burada işlər ötən ilin may ayından başlayıb. Bərpa olunan hamamın unikal strukturu qorunur, heç bir müasir əlavə edilməyib. Yalnız köhnə pilləkənlər və qübbələr yenilənib. Əvəz edilmiş bütün daşlar da qədim dövrə uyğundur. Restavrasiya başa çatdıqdan sonra burada açıq hava altında muzey yaradılacaq ki, ziyarətçilər orta əsrlərə aid bu abidənin gözəlliyini daha yaxından görmək imkanı əldə edəcəklər.

Jurnalistlər qala divarlarında aparılan təmir-bərpa işləri ilə də tanış olublar. Burada abidənin orijinal və unikal xarakterini qorumaq üçün işlər diqqətlə görülür.

Sosial şəbəkələrdə paylanılan fotoşəkillərlə bağlı da mediaturda söz açılıb. Bildirilib ki, fotolarda göstərilənlər indiki vəziyyətlə tamamilə ziddiyyət təşkil edir və qərəzlidir. Həmin şəkillər hələ 2011-ci ildə qala divarlarının restavrasiya işlərinin aparıldığı ərəfədə çəkilib. Məsələnin kökündə isə, əslində, sovetlər dönəmində, konkret olaraq 1954-cü ildə qala divarları üzərində aparılan kobud rekonstruksiya işləri durur. Əfsuslar olsun ki, həmin prosesdə qala divarlarının o zamana qədər mövcud tarixi bürclərindən biri zədələnərək öz ilkin görkəmini itirmiş və düz divarın çəkilməsi ilə nəticələnmişdi.

“İçərişəhər” DTMQİ fotoşəkillə bağlı yaradılan “mənzərə”nin və əsassız ittihamların əksinə olaraq, 2011-2012-ci illərdə qala divarlarının bərpasını həyata keçirmiş, bu əsnada həmin dağılmış bürcü bərpa etmək üçün genişmiqyaslı işlər görmüşdür. Bərpa zamanı bütün arxiv sənədləri nəzərdən keçirilmiş, mümkün qədər bürcü ilkinliyinə qaytarmaq üçün tarixçilər, memarlar, mühəndislər, bir sözlə, mütəxəssislər tərəfindən layihə işlənib hazırlanmışdır. Məhz həmin işlərin nəticəsində bu gün Kiçik Qala küçəsində həmin bürcün bərpa olunmuş vəziyyətini görürük.

İçəri şəhər kimi tarixi yadigarın qorunub saxlanması istiqamətində aparılan bərpa və yenidənqurma işlərinə də mane olmağa, xalqın gözündən salmağa çalışan, millilikdən çox-çox uzaq - antimillilərin nəinki qərəzləri, əslində, qarayaxma mərəzləri özünü yenə də gizlədə bilmədi.

Yenidən gündəmə gəlmək istəyən müxalifət düşərgəsinin bəzi mənsublarının səsləndirdikləri populist fikirlərin müəlliflərinə bir daha xatırlatmaq istərdik ki, onların reallığa hesablanmayan bütün mənfur niyyətləri baş tutmayacaq: xalq heç vaxt avantürist çıxışlara uymayıb. Bundan sonra da onların belə antimilli çağırış və hərəkətlərinin qarşısı qətiyyətlə alınacaq. Burada söhbət xalqın və dövlətin ümumi mənafeyindən gedir.

Sosial mediadan Azərbaycan əleyhinə nəinki faktsız, eyni zamanda şər-böhtan yağdıran bir qrup sərsəmin də küçə tərbiyəsinin məhsulu olan jarqon ifadələri oxumaq mümkün deyil. Azərbaycandakı sürətli inkişafın əleyhinə çıxaraq hakimiyyətə itaətsizlik göstərməyə çağıran antimillilər düşünmürlər ki, müstəqilliyin bərpasından keçən müddət ərzində özlərini müxalifət adlandıranların heç bir siyasi, ictimai, sosial platformaları yoxdur. İqtidardakı hakimiyyət təmsilçilərini, yaxud məmurları hədəf seçən radikallar özlərinin “birillik hakimiyyət”ləri zamanı xalqın gözündən düşdüklərini unudublarmı?! Bir sözlə, antimillilərin qərəzləri və xilas ola bilmədikləri mərəzləri növbəti dəfə də ifşa olundu.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Etibar qazanmaq və maarifləndirmək

## Azərbaycanın bugünkü sosial-iqtisadi inkişafı ilə ayaqlaşa bilməyən sığorta sisteminin əsas vəzifəsidir




*Əvvəli 1-ci səh.*

Xatırlatdığımız son hadisələrdən sonra Prezidentin operativ qərarlar qəbul etməsi isə göstərdi ki, dövlət hətta ölkənin sığorta sisteminin fəaliyyətsizliyini sığortalamaq məcburiyyətində qalır, gördüyü tədbirlərlə (zəlzələdən evləri dağılmış, yaxud ziyan görmüş vətəndaşlar üçün yeni evlərin inşası və ya təmir olunması, yanğın zamanı maddi zərər çəkmiş iş adamlarına kompensasiya verilməsi, onların güzəştli şərtlərlə yeni iş yerləri ilə təmin edilməsi və s.) həm sığorta şirkətlərinə, həm də onların fəaliyyətinə cavabdeh olan səlahiyyət daşıyıcılarına nümunə göstərməklə yanaşı, bir dərs də verir: “Adətən inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük”.

Həqiqətən, sığorta bir sistem olaraq inkişaf etmiş ölkələrdə iqtisadiyyatın mühüm, çox hallarda isə aparıcı və ciddi dəyər yaradan sahələrindən sayılır. Bu sistem belə ölkələrin həm ictimai, həm də sosial-iqtisadi həyatının əksər təbəqə və sahələrini əhatə etməklə əhalinin maddi rifahının, eləcə də mülkiyyət formasından asılı olmayaraq bütün, xüsusən özəl sektorda fəaliyyət riskinin zəmanətçisi rolunu oynayır, fövqəladə hadisələr zamanı əmlak sahiblərinin mənafelərini qoruyur və dövlətin maliyyə sisteminin möhkəmlənməsinə ciddi təsir göstərir. Mükəmməl sığorta sistemi nəinki fövqəladə hadisələr zamanı büdcəni nəzərə alınmamış ziyanların ödənilməsi üçün məcburi vəsait ayırmalarından azad edir, eyni zamanda iqtisadi inkişafın əsas vasitəsi sayılan uzunmüddətli sərmayə mənbəyinə çevrilir. Yəqin elə bu vacib məqamları nəzərə alan Heydər Əliyev hələ müstəqil Azərbaycanın təzə-təzə ayaqda durmağa başladığı bir dövrdə, daha dəqiq desək, 1995-ci ildə Londonda - Adam Smit Universitetindəki çıxışı zamanı demişdir: “Sığorta Azərbaycan üçün yeni və sona qədər öyrənilməyən sahədir. Biz, şübhəsiz ki, sığorta sistemini inkişaf etdirməliyik, lakin bu işi düzgün və peşəkarcasına yerinə yetirməliyik”.

O dövrdən artıq xeyli vaxt keçmişdir və ötən illər Azərbaycanın sığorta sistemi kifayət qədər inkişaf etmişdir. Bu zaman ərzində ölkədə sığorta bazarlarını tənzimləyən qanunvericilik bazası yaradılmış, əhalidə sığorta xidmətlərinə maraq müəyyən dərəcədə artmışdır. Rəqəmlərə nəzər salaq: 2018-ci ilə olan məlumata əsasən, ölkədə 21 sığorta şirkəti fəaliyyət göstərir və onlar qeyd edilən il ərzində 728 milyon manat sığorta haqları toplamış, 240,3 milyon manat sığorta ödənişləri həyata keçirmişlər. Toplanan sığorta haqlarının 536,2 milyon, ödənilənlərin 172,5 milyon manatı könüllü sığorta bazasına aid olmuşdur. İcbari sığorta üzrə isə bu rəqəmlər müvafiq olaraq 191,8 milyon və 67,8 milyon manat təşkil etmişdir. Ümumilikdə keçən il sektor üzrə məcmu sığorta haqlarının 73,7 faizi könüllü, 26,3 faizi icbari sığorta növlərinin payına düşmüşdür. Ödənişlərinsə 71,8 faizi könüllü, 28,2 faizi icbari sığorta növləri hesabına formalaşmışdır.

Bu rəqəmlər ilk baxışda kiçik olmasa da, Azərbaycanın hazırkı iqtisadi imkan və inkişafı ilə müqayisədə elə də yüksək demirik, hətta normal fəaliyyət göstəricisi sayıla bilməz. Bu isə o deməkdir ki, ölkəmizdə sığorta sisteminin həm keyfiyyət, həm də kəmiyyət sarıdan mövcud səviyyəsini qənaətbəxş hesab etmək mümkün deyil. Təkcə bizim yox, həmçinin mütəxəssislərin bu qənaətini təsdiqləmək üçün yenə də müqayisəli rəqəmlərə müraciət edək: əgər Azərbaycanda sığorta yığımlarının ölkənin ümumi daxili məhsul (ÜDM) istehsalındakı xüsusi çəkisi təxminən 1 faiz civarındadırsa, keçmiş sovet respublikaları və sosialist düşərgəsinə aid olmuş Şərqi Avropa ölkələrinin əksəriyyətində həmin göstərici təqribən 2 dəfə yüksəkdir. İnkişaf etmiş ölkələrdənsə danışmağa dəyməz - onlarda sığorta yığımlarının ÜDM-də payı 4-10 faiz civarındadır.

Müqayisə etmişkən sığorta ilə bağlı bir məsələyə də diqqət çəkək. Mütəxəssislər bildirirlər ki, inkişaf etmiş sığorta bazarlarında toplanan ümumi yığımların strukturu həyat və qeyri-həyat arasında birincinin xeyrinə 60-80 faiz arasında dəyişdiyi halda, Azərbaycanda 30:70 faiz nisbətində ikincinin xeyrinədir. Onu da qeyd edək ki, bu nisbət həyat sığortasının başladığı ilk dövrlərdə hətta 10:90 faiz nisbətində olmuşdur. Yalnız sonrakı illər həyat sığortasının artması, xüsusən könüllü olan “Həyatın yaşam sığortası” məhsulu hesabına həmin nisbət 3 dəfə azalmışdır. Məlumat üçün onu da bildirək ki, həyat sığortasının yığımlarda üstünlüyü vətəndaşların pensiya təminatının dayanıqlı və fundamentallığının göstəricisidir. Başqa sözlə desək, belə ölkələrdə təqaüdçülər həyat sığortası hesabına maliyyə baxımından daha çox təminatlı olurlar.

Sözsüz ki, biz müstəqilliyinin bərpasından heç 30 il keçməyən Azərbaycanın sığorta və göründüyü kimi, dolayısı buna bağlı olan pensiya sistemlərini dünyanın oturuşmuş, inkişaf etmiş ölkələri ilə müqayisə edib nəticə çıxarmaq fikrindən uzağıq. Bununla belə, ölkəmizin sığorta, habelə dövlətin bütün cəhdlərinə baxmayaraq, həm də pensiya sistemlərinin ölkənin sosial-iqtisadi siyasətinə və onun nəticəsi kimi inkişafına adekvat olduğu qənaətində də deyilik. Əks halda xüsusən sığorta sisteminə ən yüksək səviyyədə irad tutulmaz, iqtisadiyyatın bu vacib sahəsindəki vəziyyət növbəti dəfə, amma daha ciddi və daha konkret olaraq gündəmə gəlməzdi.

Bəs niyə növbəti dəfə? Çünki indiyəcən də ictimaiyyət arasında və KİV-də sığorta ilə bağlı müzakirələr, eşidilən gileylər, səslənən tənqidlərin sayı az olmamışdır. Çox az adam tapılar ki, ya özünü, ya da yaxın ətrafından kimi isə müştərisi olduğu sığorta şirkəti ödəniş sarıdan incitməsin. Belə hallarla avtomobillərin icbari və səyahət sığortalarının müştəriləri daha çox qarşılaşırlar. Onlar şirkətlərin ağlagəlməyən bəhanələrlə ödəniş etmək istəməmələrinin canlı şahididirlər. Elə bunun nəticəsidir ki, məsələn, keçən il ölkə üzrə hər 100 manat sığorta yığımından cəmi 33 manat ödəniş edilmişdir. Halbuki 2017-ci ildə ödənişin məbləği 46,2 manat olmuşdur. Deməli, sığorta şirkətləri il ərzində öz gəlirlərini 13 faizdən çox artırmışlar... təbii ki, müştərilərinə ödənilməli olan, amma ödənilməyən vəsait hesabına! Yeri gəlmişkən bildirək ki, inkişaf etmiş sığorta sistemində yığım və ödəniş arasındakı bu nisbət bizdəki ilə müqayisədə xeyli azdır.

Bax elə bu yerdə Azərbaycanda sığorta bazasının istənilən səviyyədə olmamasına gətirib çıxaran əsas səbəb - etibar məsələsinə diqqət çəkmək istərdik. Bəli, bu gün ölkədəki potensial sığorta müştəriləri arasında sığorta şirkətlərinə etibar, yumşaq desək, zəifdir. Bizim sığorta şirkətlərimizin əksəriyyəti əhalinin təfəkküründə sovet dövründən kök atmış “sığorta pul tələsidir” psixologiyasını hələ tam silə bilməmişdir. Əgər belə davam, edərsə, yaxın gələcəkdə silə biləcəkləri heç görünmür də... Bu bədbin proqnozun səbəbi isə, bütün cəhdlərə baxmayaraq, əhalinin könüllü (həyat və ya qeyri-həyat) sığorta xidmətlərindən istifadə etməyə meyilli olmamasıdır. Əks halda nə Ağsu və Şamaxıda zəlzələdən, nə də “Diqlas” ticarət mərkəzində yanğından ziyan çəkənlərə dövlət bu gərgin zamanda büdcədən vəsait ayırardı.

Yaxud götürək kənd təsərrüfatı sığortasını. Neçə illərdir hətta ən yüksək səviyyədə sığorta şirkətlərinə aqrar sektorda fəaliyyət göstərmələri tövsiyə olunsa da, bu işdə nəzərəçarpan irəliləyiş hiss edilmir. Hiss edilsəydi, indiyəcən ölkə üzrə aqrar sektorun təxminən 0,6 faizi sığortalanmazdı. Heç kim kənd təsərrüfatının bir çox risklərin təsiri altında olduğunu, bu və digər səbəblərdən aqrar sektorda çalışanların yüksək gəlirlə işləmədiklərini və həmin üzdən sığorta haqları ilə bağlı müəyyən problemlər yaşadıqlarını inkar etmir. Lakin bu, bütün ölkələrdə belədir və həmin ölkələr kənd təsərrüfatının sığortalanması işinə zəruri və ciddi xidmət sahəsi kimi baxırlar. Üstəlik bu sahədə sınaqdan çıxmış dünya təcrübələri mövcuddur. Zarafat deyil, dünyada aqrar sığortanın tarixi 1770-1800-cü illərə gedib çıxır. Həmin illər İrlandiyada heyvanlar, Almaniyada isə dolu və yanğın sığortalanması həyata keçirilmişdir.

Mütəxəssislər bildirirlər ki, kənd təsərrüfatı məhsulları istehsalında qarşılana biləcək risklər 3 qrupa bölünür. Bunlar fəlakətli (quraqlıq), idarə edilməsi çətin olan (dolu, fırtına, zəlzələ, sel) və nəzarət oluna bilən (xəstəliklər, zərərvericilər) risklərdir. Elə ölkələr (məsələn, Braziliya, Kanada, ABŞ, Yaponiya, Hindistan) var ki, onlarda bu 3 qrup risklərin hamısı sığortalanır. Amma BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) araşdırmaları göstərir ki, dünyada bir və ya bir neçə təhlükədən sığortalanma ənənəsi daha çox yayılıb.

O ki qaldı aqrar sektorda sığorta qurumlarının (şirkətlərinin) iştirakına, bu işdə də müxtəlif ölkələr arasında müxtəlif üsullar mövcuddur. Kanada, Yunanıstan, Hindistan, İran, Filippin kimi ölkələrdə kənd təsərrüfatının sığortalanması dövlətin nəzarətində olan proqramlar əsasında həyata keçirilir. Argentina, Avstraliya, Almaniya, Macarıstan, Hollandiya, İsveçrə, Yeni Zelandiyada isə bu işlə yalnız özəl sığorta şirkətləri məşğul olur. Eyni zamanda aqrar sektorda hər iki - dövlət və özəl sektorların əməkdaşlıq etdiyi ölkələr də var. Məsələn, Türkiyə, İspaniya, Cənubi Koreya, Portuqaliya, ABŞ, Fransa, İtaliya və s. belə ölkələrdəndir.

Sadalanan üç qrupu birləşdirən çoxsaylı cəhətlərdən biri yox, birincisi isə sığorta edənlərin sığorta edilənləri bu işə inandırmalarıdır. Ekspertlər deyirlər ki, kənd təsərrüfatı məhsulları istehsalçıları ilə əlaqə, ünsiyyət aqrar sığorta işinin ən əhəmiyyətli tərəfidir. Həmin əlaqə, ünsiyyət kütləvi informasiya vasitələri, maarifləndirmə proqramları, yığıncaqlar, kurslar, müsabiqələr və s. formada ola bilər. Bu müxtəlif formalı tədbirlərin isə bir məqsədi var - məhsul istehsalçılarını sığortanın vacibliyinə, onun ədalətli və etibarlı olduğuna inandırmaq!

Bax bu gün Azərbaycanın istənilən səviyyədə olmayan aqrar sığortasında çatışmayan məhz budur. Mütəxəssislər də etiraf edirlər ki, bizim fermerlərin sığortaya biganə münasibətlərinin səbəblərindən birincisi bu sahə barədə az məlumatlı olmaları, ikincisi sığorta şirkətlərinə inamsızlıqlarıdır. Amma dolayısı ilə etiraf edilməli üçüncü səbəb də var ki, bu da sığorta şirkətlərinin kənd təsərrüfatına meyilli olmamalarıdır. Bunun səbəbi barədə isə az əvvəl qısa da olsa bəhs etdik.

Biz niyə aqrar sektorun üzərində bir qədər geniş dayandıq? Əvvəla, bu, dünyada ərzaq sarıdan ciddi problemlər yaşandığı indiki zamanda məhsul istehsalına marağı artırmaq üçün çox ciddi qoruyucu sistem olaraq mühüm əhəmiyyət kəsb edir, sonrası da, bunun davamı kimi ölkənin ərzaq idxalından asılılığının azaldılmasında vacib rol oynayır.

Lakin bu o demək deyil ki, ölkənin sosial-iqtisadi inkişafında digər sığorta xidmətlərinin önəmi azdır. Əksinə, əmin olmaq üçün bir daha məlum son hadisələri xatırlamaq kifayətdir. Baxmayaraq ki, zəlzələ zamanı vətəndaşlarımıza dəyən ziyanın dövlət büdcəsi hesabına qarşılanması da, yanğında daşınan, yaxud daşınmaz əmlakı əllərindən çıxmış sahibkarlara büdcədən yardım edilməsi də dövlətin humanist sosial-iqtisadi siyasətinin göstəricisidir, sığorta sistemi normal çalışardısa, həmin işlərə dövlətin, daha doğrusu, dövlət büdcəsinin aidiyyəti olmamalı idi.

Nə isə, bunlar ötüb keçdi. İndi gələcəyə baxmalıyıq, o gələcəyə ki, onun bu cür hadisələrdən sığorta olunduğuna heç kim zəmanət verə bilməz. Ona görə sığorta sistemimiz adına və məqsədinə uyğun fəaliyyət göstərməlidir, özü də dünya standartları səviyyəsində. Bunun üçün isə ilk növbədə ölkədə sığorta sisteminin inkişafını ləngidən maneələr (məsələn, sığorta bazarında diversifikasiyanın aşağı səviyyədə olması və bu zaman sığortaçıların portfelinin əsasən 2-3 sığorta növü üzrə formalaşması, rəqabətin aşağı olması, sığorta şirkətlərinin maliyyə vəsaitlərinin, yəni kapitallaşmalarının zəifliyi və s.) aradan qaldırılmalıdır. Bunlardan əlavə, mütəxəssislərin qənaətinə görə, ölkədə sığorta şirkətlərinin sərbəst vəsaitlərinin səhmlərin və qiymətli kağızların alınmasına yönəldilməsi sahəsində də lazım olan şərait yoxdur. Ümumiyyətlə, görüləsi işlərin siyahısını uzatmaq və həmin sıraya qabaqcıl təcrübənin tətbiqi, ixtisaslı kadrların hazırlığı, sığorta xidmətlərinin çeşidlərinin artırılmasından tutmuş sığorta şirkətlərinin fəaliyyətində şəffaflığın təminatına və sığorta bazarında inhisarçılığın aradan qaldırılmasınadək olan tədbirləri əlavə etmək mümkündür.

Mümkün olan həm də bütün bu və qeyd etmədiyimiz digər tədbirləri həyata keçirməkdir. Xüsusən də onu Azərbaycanın yeni sosial-iqtisadi inkişaf modelinə keçid ərəfəsindəki reallıqlar və bu reallıqdan çıxış edən dövlət başçısı tələb edirsə...

***Raqif MƏMMƏDLİ,***
***“Azərbaycan”***




# Küçələrin fəthi başladı

## Pilotlar yarışa, bolidlər isə trekə hazırdırlar



*Əvvəli 1-ci səh.*



### Yeniliklərlə yaddaqalan mərhələ

"Formula-1" yarışlarının Azərbaycanın paytaxtında keçirilməsi ilə bağlı FOM (Formula One Management) ilə danışıqlar 2013-cü ildə başlanıb və 2014-cü ilin martında ilkin müqavilə imzalanıb. Azərbaycanda Qran-prinin təşkili ilə dövlət səviyyəsində məşğul olublar. Bu da layihənin statusunu və onun ölkə üçün əhəmiyyətini göstərir.

İlk dəfə 2016-cı ildə paytaxtımızda keçirilən "Formula-1" Avropa Qran-prisinin Bakı mərhələsi yeniliklə yadda qalmışdı. Bu, sıralama turları ilə bağlıdır. Əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırıldı.

10 pilot 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa start verirdi. Yeni qaydaya görə isə seansın sonunda yox, 90 saniyədən bir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulub.

"Formula-1" mütəxəssislərinin rəylərinə görə, bu yenilik yarışın həyəcanını bir qədər də artırıb.

"Formula-1"in dünyada kifayət qədər azarkeşləri olduğunu nəzərə alsaq, Bakı Şəhər Halqasında tamaşaçıların yarışı canlı və təhlükəsiz izləmələrinə hər cür imkan yaradılıb. Bunun üçün Bakı Şəhər Halqasının müxtəlif yerlərində tamaşaçı tribunaları quraşdırılıb. Bu tribunalar elə yüksək səviyyədə hazırlanıb ki, daim istifadədə olsa belə, dağılıb sıradan çıxmır. Bu mötəbər yarışın yüksək səviyyədə KİV-də işıqlandırılmasına təcrübəli müxbir və fotomüxbirlər cəlb edilib. Beləliklə, dünyanın ən böyük informasiya alyansları, eləcə də ölkəmizin xəbər agentlikləri Bakıda keçiriləcək "Formula-1" yarışı barədə xəbərləri dünyaya yayacaqlar.

### Şəhər traslarının ən sürətlisi

Bakı trası şəhər traslarından ən sürətlisidir. O, uzunluğuna görə yalnız Spadan, döngələrinin sayına görə isə Sinqapurdan və Abu-Dabidən geri qalır. O da saat əqrəbinin əks istiqamətində burulur. German Tilkenin arxitektura bürosu tərəfindən işlənib hazırlanmış küçə trası layihəsi isə 2014-cü ilin oktyabrında rəsmən təqdim edilib. Layihəyə görə, tras Dənizkənarı bulvar və Hökumət Evi, qismən İçərişəhər boyunca tarixi mərkəzdən keçir.

Düz yolun sonunda maksimum sürət saatda təqribən 370 kilometrdir. Konfiqurasiyaya 12-si sol və 8-i sağ olmaqla 20 döngə, o cümlədən səkkiz 90 dərəcəlik döngə daxildir. Trasın eni İçərişəhərdə yeddinci və səkkizinci döngələr rayonunda 13 metrdən 7,6 metrə qədərdir. Maşınları kiçik sıxma gücü səviyyəsinə görə sazlayırlar ki, bu da yalnız Monsadakından azdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# "Formula-1" ərəfəsində Bakıda hotellər dolub

"Formula-1" Azərbaycan Qran-prisi ilə əlaqədar olaraq Bakının mərkəzində yerləşən hotellərdə yerlərin 90-95 faizi dolub. Bunu "Trend" agentliyinə Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının sədri Samir Dübəndi deyib.

Dübəndi bildirib ki, yarışlarla bağlı şəhərin mərkəzində yerləşən bir sıra iri hotellər daha çox turist qəbul edib: "Bir qədər kiçik hotellərdə də sıxlıq var. Belə ki, təxminən 65-75 faiz sıxlıq nümayiş olunur. Bu, mövsüm üçün yüksək göstəricidir". O əlavə edib ki, "Formula-1" hotelçilik və turizm sənayesi baxımından çox önəmli tədbirdir: "Formula-1" kimi irimiqyaslı tədbirlər ölkəyə əlavə turist cəlb edir. Azərbaycan yeni turizm məkanı kimi dünyaya açılır. Tədbir sayəsində turizm infrastrukturumuz, o cümlədən hotellər, restoran xidmətləri, əyləncə, taksi xidmətləri, suvenir satışı və s. sahələrdə canlanma nəzərə çarpır".

Assosiasiyanın sədri qeyd edib ki, "Formula-1" Azərbaycanın turizm imkanlarını tanıtmaq baxımından da önəmlidir: "Turistlər yarışlardan əvvəl gəlir, yarışlardan sonra da qalıb Azərbaycanın turizm imkanları ilə tanış olurlar. "Formula-1" bahalı idman növüdür və onun azarkeşləri də varlı adamlardır. Biz onlara yeni turizm məhsulları təqdim etməliyik. Söhbət region turlarından gedir. Bu onlar üçün daha maraqlı olar".

Mütəxəssis deyib ki, turizm sənayesinin "Formula-1"dən gözləntiləri yüksəkdir: "Ümid edirik ki, builki yarışlar da turistlərin sayının artmasına təsir edəcək. Dövlət turizm sənayesi qarşısında məqsədlər qoyub. 2020-ci ildə biz 4,5 milyon turist qəbul edə biləcəyik".

# "Formula-1" SOCAR Azərbaycan Qran-prisinin tamaşaçılarını yarış həftəsonu nələr gözləyir?

Bu həftəsonu keçiriləcək "Formula-1" SOCAR Azərbaycan Qran-Prisi çərçivəsində Dənizkənarı bulvar ərazisində yerləşən əyləncə zonasında biletli tamaşaçılara bir-birindən maraqlı əyləncə tədbirləri təqdim olunacaq.

AZƏRTAC xəbər verir ki, aprelin 25-dən əyləncə zonasının qapıları tamaşaçıların üzünə açıqdır və proqram saat 21:00-dək davam edəcək. Həftənin digər günlərində isə bu zona saat 10:00-dan 19:00-dək fəaliyyət göstərəcək.




### "Formula-1" yarış proqramı

Sərbəst yürüşlərə aprelin 26-da start veriləcək. Birinci sərbəst yürüş saat 13:00-dan 14:30-dək, ikinci sərbəst yürüş 17:00-dan 18:30-dək, üçüncü sərbəst yürüş isə aprelin 27-də saat 14:00-dan 15:00-dək davam edəcək. Sıralanma turu aprelin 27-də saat 17:00-dən 18:00-dək keçiriləcək. Yarışa isə bazar günü - aprelin 28-də saat 16:10-da start veriləcək.

### "Formula-2" yarışları

"Formula-1" təqvimində yer alan ölkələrin əksəriyyətində bu çempionatla paralel olaraq "Formula-2" üzrə iki yarış keçirilir. Bakıda birinci yarış aprelin 27-də saat 12:00-dan 13:05-dək davam edəcək. İkinci yarış isə aprelin 28-də saat 13:10-da başlayacaq və 14:00-da başa çatacaq.

### Axşam konsertləri

Hər il olduğu kimi, bu il də Azərbaycan Qran-Prisinin yarış həftəsonunun axşam saatlarında dünya ulduzlarının iştirakı ilə möhtəşəm konsert proqramları təşkil olunacaq. Aprelin 27-də "Baku Crystal Hall"da keçiriləcək açılış konsertində səhnəyə britaniyalı ulduz Cessi Cey çıxacaq. Aprelin 28-də isə amerikalı superstar Kardi B bağlanış konserti ilə çıxış edəcək.

### "Bakı şəhərinin sədaları"

"Formula-1" yarışı çərçivəsində ənənəvi gecə əyləncə proqramları bu il ilk dəfə olaraq "Bakı şəhərinin sədaları" adı altında təqdim ediləcək. "Elektra Events Hall"da dünyaca məşhur DJ-lər çıxış edəcəklər. Aprelin 26-da səhnəyə Ciqan və Mahmut Orhan, ertəsi gün Robin Şulz, ayın 28-də isə "Lost Frequencies" çıxacaq. Gecə keçirilən əyləncə proqramlarında iştirak etmək istəyən hər kəs bilet almalıdır. Biletləri şəhərin müvafiq kassalarında günlük 55 manatdan əldə etmək olar.

### Avtoqraf və sual-cavab sessiyaları

F1 azarkeş zonasında yerləşən səhnədə hər gün saat 11:00 ilə 13:00 arasında müxtəlif vaxtlarda "Formula-1" pilotlarının iştirakı ilə avtoqraf sessiyaları olacaq. Aprelin 26-da keçiriləcək avtoqraf sessiyalarında "Red Bull", "Ferrari", "Renault", bir gün sonra "Racing Point", "Alfa Romeo", "Mercedes", ayın 28-də isə "Williams", "McLaren", "Haas" və "Toro Rosso" komandalarının pilotları iştirak edəcəklər. Yenə bu məkanda fərqli vaxtlarda "Formula"1"də yeni pilotlar azarkeşlərin görüşünə gələcək və onların suallarını cavablandıracaqlar.

F1 fanat zonası avtoidman həvəskarları və ailə üzvləri üçün müxtəlif əyləncə vasitələrinin olduğu ən maraqlı məkandır. Burada avtomobillərin şəkilləri və xatirə divarı yaddaşlarda silinməz izlər buraxacaq.

Azarkeşlər pit-stop və reaktiv yarışlarında və oyun zonasında F1 həyəcanını yaşayacaq, istirahət guşəsində isə dincələ biləcəklər. Uşaqlar üçün nəzərdə tutulmuş pit-stop isə rəsm sessiyaları üçün kiçik fanatları gözləyəcək.

Milli adət-ənənə, mədəniyyət və qonaqpərvərliyin şahidi olmaq istəyənlər Azərbaycan mədəniyyəti guşəsinə baş çəkəcəklər.

F1 həvəskarlarının böyük səbirsizliklə gözlədikləri an isə avtoqraf sessiyalarıdır. Bu sessiyalar zamanı F1 qəhrəmanları ilə üz-üzə görüşmək, avtoqraf almaq və foto çəkdirmək şansı olacaq.

# Daniel Rikkardo: "Bakı trasında əyləci sıxmağa tələsmək lazım deyil"

"Formula-1" yürüşlərinin Çində keçirilmiş əvvəlki mərhələsində Daniel Rikkardo "Renault" komandasının heyətində ilk xallarını qazanıb. 2017-ci ildə Bakı trasında yürüşün qalibi olmuş pilot bu dəfə öz uğurunu daha da möhkəmlətmək niyyətindədir.

*- Azərbaycan Qran-prisinin bənzərsizliyi nədən ibarətdir?*

- Bakı trası digər şəhərlərin küçələrində keçirilən Qran-pri trasından tamamilə fərqlənir. Burada ötüb keçmək üçün çox imkan var. Mənim Bakı trasında yürüşlərim həmişə maraqlı olub. Ağlasığmaz uğurlar da olub, məsələn, 2017-ci ildə gözlənilmədən qalib gəldiyim kimi, ötənilki kimi tam uğursuzluq da. 2017-ci ildə yürüş kartdrom döyüşünə oxşayırdı - həmin gün biz hamınız özümüzü təzədən uşaq kimi hiss etdik. Bu trasın bəzi elementlərindən yeni avtodromlarda istifadə



etmək yaxşı olardı. Əyri-üyrü, uzun marşrut rəqibləri ötüb keçməyə imkan verir və biz öz maşınlarımızı daha kiçik sıxıcı qüvvə üçün kökləməyə məcbur oluruq.

*- Bakı trasının əsas mürəkkəbliyi nədən ibarətdir?*

- Əsas mürəkkəblik əyləc sistemi ilə bağlıdır. Xüsusən düzxətli hissələrdən sonrakı birinci və üçüncü döngələrin qarşısında əyləci mümkün qədər gec sıxmaq lazımdır.

Bu halda siz daim hücum vəziyyətində olursunuz və səhv etməyə haqqınız yoxdur. Uik-enddə maşının imkanlarının yuxarı həddini tapmaq lazımdır. Bu isə maneələrlə əhatə olunmuş trasda heç də asan deyil. Keçən dəfə özümüz gördük ki, səhv etmək divara çırpılmaqla nəticələnir və bu halda pilot mübarizəni dayandırmağa məcbur olur.

*- Bundan əvvəlki yürüşdə "Renault" komandasının heyətində ilk xalları qazanmağınızdan razısınızmı?*

- Çində xal qazanmaq çox xoş idi. Uik-enddə irəliləməyə nail olduq. Cümə günü məşqlər zamanı problemlər də oldu, lakin hər dəfə trasa çıxanda özümüzə inamımız artırdı.

Bir pitt-stop ilə yürüş keçirmək asan deyildi, lakin biz bu vəzifəni yerinə yetirdik. Müsbət amillər çoxdur. Qarşıda görüləsi işlərin çox olduğunu bilirik, amma düzgün istiqamətdə irəliləyirik.

# Mario İzola: "Bakı Şəhər Halqası digər şəhər treklərindən çox fərqlənir"

"Pirelli" şirkətinin rəsmi veb-səhifəsində "Formula-1" SOCAR Azərbaycan Qran-prisi ilə bağlı təkər seçimlərinə dair məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər Halqasının özünəməxsus xüsusiyyətləri, küləkli və dəyişkən hava şəraiti, həmçinin trek ətrafındakı tikililərin hava axınına və trek səthinin istiliyinə təsiri komandalara düzgün təkər strategiyasının qurulmasında çətinlik törədir.



Məqalədə qeyd olunub ki, Bakı Şəhər Halqası ən uzun və sürətli şəhər trekidir. Yüksək sürət, kəskin döngələr və ensiz hissələr bu trekdə qəzaları qaçılmaz edir. Nəticədə təhlükəsizlik maşını trekə daxil olur. Digər tərəfdən, "Formula-1" trekləri içində ən uzun sürətlənmə düzlüyü buradadır və bu düzlük təkərlərin istiliyini aşağı salır. Bundan başqa, şəhər treki olduğuna görə burada səth hamardır və bu da öz növbəsində təkərlərin asfalta möhkəm ilişməsinə mane olur.

Yazıda bildirilir: "Bakı, həm də "Küləklər şəhəri" kimi tanınır və külək bolidlərin aerodinamikasına böyük təsir göstərir. Trekin ətrafında çoxmərtəbəli binaların olması trekə müxtəlif istiqamətlərdən güclü hava axınının daxil olmasına səbəb olur. Digər tərəfdən, yarış 16:10-da başlayır və trek səthində temperatur tezliklə aşağı düşə bilir. Ümumiyyətlə indiyədək Bakıda keçirilmiş Qran-pri yarışları həm çox isti, həm də sərin hava şəraitində baş tutub. Qeyd olunan bu səbəblər Bakı üçün sabit strategiyanın qurulmasını mümkünsüz edir".

Bunları nəzərə alan "Pirelli" şirkəti Çində baş tutmuş sonuncu yarışda olduğu kimi, Bakı yarışında da komandalara oxşar təkər seçimlərini təklif edir - sərt, orta və yumşaq. Komandalar artıq öz seçimlərini ediblər. İlk üçlükdə olan komandalardan "Red Bull" yumşaq təkərlərə daha çox üstünlük verib. "Mercedes" və "Ferrari" komandaları isə bu təkər növünə öz seçimlərində az yer veriblər.

Şirkətin "Formula-1" üzrə yarış meneceri Mario İzola Azərbaycan Qran-prisi üçün düzgün təkər seçimi etməkdə çətinlik çəkdiyini bildirib: "Bakıda pilotları gözləyən əsas çətinlik ön və arxa təkərlərin düzgün istiqamətdə işləməsini təmin edən oxların balansını saxlamaqdır. İki kilometrlik sürətlənmə düzlüyü və müxtəlif texniki xüsusiyyətli döngələri ilə fərqlənən Bakı trekində tez-tez təhlükəsizlik maşınını görürük. Bu, bəzi komandaların işinə mane olsa da, bəzilərinin strategiyasına xidmət edir.

Yarış üçün seçdiyimiz təkər növləri Bakının müxtəlif tələblərinə tam uyğun olmalıdır. Bununla belə, Azərbaycan Qran-prisi düzgün təkər seçimi etmək baxımından təqvimin ən çətin yarışlarından biridir. Bu, bütün şəhər trekləri üçün xarakterik xüsusiyyətdir. Lakin Bakı treki uzunluğu və yüksək sürət yığmaq imkanı baxımından "Formula-1" təqvimindəki digər şəhər treklərindən çox fərqlənir".

# Bakıda 3-cü Qlobal Sağlamlıq Turizm Forumu keçirilmişdir





Aprelin 23-də "Pullman Baku" hotelində Bakıda Azərbaycan Dövlət Turizm Agentliyinin rəsmi dəstəyi, Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası (AHTTSA) və Azərbaycan Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə 3-cü Qlobal Sağlamlıq Turizm Forumu və Qlobal Sağlamlıq Turizm Şurasının (QSTŞ) 5-ci Assambleyası keçirilmişdir.

"Qlobal Sağlamlıq hamı üçün" şüarı altında gerçəkləşdirilən tədbirdə QSTŞ-yə üzv 25 ölkənin milli sağlamlıq turizm qurumlarının rəhbərləri, Milli Məclisin deputatları, Azərbaycan turizm ictimaiyyətinin, aidiyyəti dövlət qurumlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Qlobal Sağlamlıq Turizm Şurasının dönəm sədri Ruslan Quliyev çıxışında bildirib ki, QSTŞ 2013-cü ildə Monakoda keçirilən Beynəlxalq Tibbi Səyahət Konfransında Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə təsis edilib və indiyədək təşkilatın 4 zirvə toplantısı qismində sayılan forumu keçirilib. QSTŞ-nin 60-a yaxın üzvü sırasında ABŞ, AFR, Böyük Britaniya, Türkiyə, Polşa, Yunanıstan, Macarıstan, Bolqarıstan, RF, Ukrayna, Gürcüstan, Çin Xalq Respublikası, Hindistan, İran İslam Respublikası, Qazaxıstan, İordaniya Krallığı, Səudiyyə Ərəbistanı və başqa nüfuzlu ölkələr təmsil olunur.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası Qlobal Sağlamlıq Turizm Şurasında ölkəni ləyaqətlə təmsil edir və 2014-cü ildən etibarən bu təşkilatın İdarə Heyətinin üzvüdür. 2018-ci ilin aprelində QSTŞ-nin Türkiyədə keçirilən növbəti Zirvə Toplantısında AHTTSA-nın sədri Ruslan Quliyev bu beynəlxalq qurumun prezidenti seçilib və Azərbaycan Respublikası qeyd olunan mötəbər təşkilata rəhbərlik etmək hüququ ilə növbəti sahib ölkə qismində təsdiq edilib.

Ruslan Quliyev onu da qeyd edib ki, təşkilatın 5-ci Assambleyasında quruma yeni sədr seçilməli və forumun sonunda Bakı deklarasiyası qəbul edilməlidir.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edərək qeyd etdi ki, hazırda Azərbaycanda dərin iqtisadi islahatlar aparılır və bu islahatların məqsədi vətəndaşlarımızın sosial rifahını yaxşılaşdırmaq, ölkəmizin iqtisadi qüdrətini yüksəltmək, neftdən asılılığı azaldaraq şaxələndirilmiş iqtisadiyyata sahib olmaq, qeyri-neft sektorunun əsas sahələrindən biri olan turizm sahəsində gəlirlərin artırılmasını təmin etməkdir: "Turizm sənayesinin inkişafı Azərbaycan üçün prioritet hesab olunan sektorlardan biridir. Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə vurğulanır ki, mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcək. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə ölkəni dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirməkdir".

Konfederasiya prezidenti Azərbaycanda turizmin xüsusi istiqamətlərindən biri olan sağlamlıq və termal turizm sənayesinin son illərdə özünün inkişaf dövrünü yaşadığını da diqqətə çatdırıb və Qlobal Sağlamlıq Turizm Forumunun Bakıda keçirilməsinin də bunun sübutu olduğunu bildirib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədovun fikrincə, turizm sənayesinin davamlı inkişaf etdiyi bir dövrdə kifayət qədər çox sayda insanlar sağlamlıq məqsədilə səfərlər edirlər. Bu turist axınlarının cəlb edilməsi uğrunda region ölkələri arasında rəqabət mövcuddur. Bu mübarizə əsasən gəlir əldə etmək, məşğulluq yaratmaq və ölkəyə valyuta gətirmək kimi iqtisadi prioritetlərə söykənir. Azərbaycan bu sahədə mövcud potensialından səmərəli istifadə etməklə ölkəyə daha çox turist axınına nail ola bilər.

Azərbaycan Turizm Agentliyinin aparat rəhbəri Kənan Qasımov qeyd etdi ki, ölkəmizdə sağlamlıq turizminin çox qədim tarixi var, bu tarix və yaradılan mövcud infrastruktur imkan verir ki, bu sahədə çox böyük uğurlara imza ataq və dünyanın hər tərəfindən ölkəyə turist axınına nail olaq.

"Azərkurort" Səhmdar Cəmiyyətinin sədri Əbil Ağasıyevin, AMEA Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasovun, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin sədri Əkbər Novruzovun çıxışları əsasən Azərbaycan sağlamlıq turizminin potensialından səmərəli istifadə məsələlərinə həsr olunmuşdu.

Tədbirdə həmçinin bildirilib ki, ölkəmizi bütün dünyada məşhurlaşdıran Naftalan neftindən 15 adda dərmanın hazırlanmasında istifadə olunur ki, bununla da 70 xəstəliyi müalicə etmək mümkündür. Ötən il Naftalana müalicə məqsədilə 62 ölkədən 35 min nəfər turist gəlib.

Qlobal Sağlamlıq Turizm Şurasının qurucusu və fəxri sədri Emin Çakmak bildirib ki, Azərbaycanın bir neçə sağlamlıq məkanlarında olub və hesab edir ki, ölkədə bu baxımdan unikal imkanlar mövcuddur: "Bu forumun Bakıda reallaşması Azərbaycanın bu sahədə daha da tanınmasına səbəb olacaq. Hazırda sosial media vasitəsilə dünyanın dörd bir yanından bizi izləyirlər. Eyni zamanda şuranın 58 üzv ölkəsinin əksəriyyətindən, o cümlədən Rusiyanın, Almaniyanın, Türkiyənin, Qazaxıstanın, Gürcüstanın və digər ölkələrin nümayəndələri burada təmsil olunur. Bundan gözəl təbliğat ola bilməz. Azərbaycan qlobal şəkildə sağlamlıq turizmi sənayesinə inteqrasiya olunur".

Daha sonra Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası və AMEA Neft-Kimya Prosesləri İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanmış və forumun yekunu olaraq Bakı deklarasiyası qəbul edilmişdir.

Günün sonunda səsvermə yolu ilə Qlobal Sağlamlıq Turizm Şurasına sədrlik Azərbaycandan Ukraynaya keçmişdir. Ukrayna Tibbi Turizm Assosiasiyasının prezidenti Violetta Yanışevskaya növbəti bir il ərzində QSTŞ-yə sədrlik edəcək.

***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbinin təşkilatçılığı ilə keçirilən 4-cü SOCAR Forumu başa çatıb

Bakıda SOCAR-ın dəstəyi, Bakı Ali Neft Məktəbinin və Böyük Britaniyanın "Confidence Capital" şirkətinin təşkilatçılığı ilə keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş 4-cü SOCAR Beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft emalı, Neft-kimya" Forumu başa çatıb.




İştirakçılara Xəzər regionu və Mərkəzi Asiyada neft-qaz sənayesinin başlıca inkişaf istiqamətləri, eləcə də ticarət, logistika, neft emalı və neft-kimya sahələrində ən böyük beynəlxalq layihələr barədə informasiya mübadiləsi, habelə region ölkələrindən olan həmkarlar və tərəfdaşlarla birgə mövcud əməkdaşlığın möhkəmlənməsi və yeni işgüzar əlaqələrin qurulması üçün geniş imkanlar təqdim edən forumda dünyanın 20-dən artıq ölkəsindən olan müxtəlif şirkətləri təmsil edən 300-ə yaxın mütəxəssis iştirak edib. Forumda, eləcə də forum çərçivəsində keçirilmiş Xəzər və Mərkəzi Asiya regionlarının emal və neft-kimya sənayesi - layihələr və texniki həllər mövzusunda konfransda 40-a yaxın prezentasiya və məruzələr təqdim edilmiş, qonaqların SOCAR Karbamid, SOCAR Metanol, SOCAR Polimer zavodlarına və Səngəçal Neft Terminalına səfərləri təşkil olunmuşdur.

Xatırladaq ki, Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilən və 2016-cı ildən etibarən təşkil olunan forum ulu öndər tərəfindən əsası qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən neft strategiyasının işıqlandırılması üçün unikal bir platformadır. Forumda Xəzər və Mərkəzi Asiya regionlarının yanacaq-energetika, neft-kimya komplekslərinin və logistika strukturlarının, həmçinin aparıcı yerli və beynəlxalq şirkətlərin top-menecerləri, sahəsinin öndə gedən ekspertləri, analitiklər, diplomatik korpus nümayəndələri və digər çoxsaylı mütəxəssislər iştirak edirlər. İştirakçılar Azərbaycanın neft-qaz sənayesinin inkişafı, Xəzər regionu və Mərkəzi Asiyada neft və qaz bazarları, karbohidrogenlərin logistika və tranzit potensialı, başlıca ixrac marşrutları, xam neft və neft məhsullarının ticarət dövriyyəsi, neft emalı və neft-kimya müəssisələrinin modernizasiyası, neft və qaz emalı sahəsində innovativ texnologiyalar və bir çox digər sahələrdə məruzələr və ekspert rəyləri ilə tanış olmaq imkanı əldə edirlər.

***"Azərbaycan"***

# "Digital HUB" proqramı çərçivəsində "AzerTelecom" və "China Telecom" Strateji Anlaşma Memorandumu imzalayıb

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkəti Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün həyata keçirdiyi "Azerbaijan Digital HUB" proqramı çərçivəsində Çinin informasiya və kommunikasiya texnologiyaları sahəsində qabaqcıl şirkəti olan "China Telecom" ilə Starteji Anlaşma Memorandumu imzalayıb.




Çinin İKT sahəsində fəaliyyət göstərən qlobal şirkəti olan "China Telecom"la "AzerTelecom" şirkəti arasında Starteji Anlaşma Memorandumunun imzalanması Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirak etdiyi "Bir kəmər, bir yol" 2-ci Beynəlxalq Forumu çərçivəsində baş tutub. Forum çərçivəsində Azərbaycan Respublikasını və Çin Xalq Respublikasını təmsil edən müxtəlif şirkətlər arasında sənədlərin imzalanması mərasimi keçirilib.

Starteji Anlaşma Memorandumunu "AzerTelecom" şirkəti tərəfdən Baş icraçı direktor, "Azerbaijan Digital HUB" proqramının müəllifi və rəhbəri Fuad Allahverdiyev, "China Telecom" tərəfdən isə bu şirkətin vitse-prezidenti Dong Zi Yu imzalayıb.

"Azərbaycanın beynəlxalq səviyyədə tanınan telekommunikasiya operatoru, Azərbaycanın Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital HUB" proqramını icra edən "AzerTelecom" ilə Çinin iri texnologiya şirkəti olan "China Telecom" arasında Starteji Anlaşma Memorandumunun imzalanması mühüm əhəmiyyətə malikdir. Belə ki, bu *sənəd iki ölkəni təmsil edən iri telekommunikasiya şirkətləri arasında "Digital HUB" proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin (Rəqəmsal İpək yolu) yaradılması istiqamətində qarşılıqlı anlaşmanı və əməkdaşlığı* özündə əks etdirir" deyə "AzerTelecom" şirkətinin Baş icraçı direktoru Fuad Allahverdiyev qeyd edib.

Fuad Allahverdiyevin bildirdiyinə əsasən, Strateji Anlaşma Memorandumu Çinin internet trafikinin daşıyıcısı - qlobal tranzit şirkəti olan *"China Telecom" şirkətinin internet trafikinin "Digital HUB" proqramı çərçivəsində qurulan Asiya-Avropa arasında yenirəqəmsal telekommunikasiya dəhlizi üzrə Azərbaycan üzərindən daşınması* istiqamətində qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq üçün imkanlar açır.

Qeyd edək ki, 25-27 aprel tarixlərində Çin Xalq Respublikasının paytaxtı Pekində "Bir kəmər, bir yol" strategiyası çərçivəsində 2-ci Beynəlxalq Əməkdaşlıq Forumu keçirilir. Forum dövlət və hökumət başçılarını, müxtəlif dövlət rəsmilərini, özəl sektoru təmsil edən iri şirkətləri, sərmayədarları, müxtəlif beynəlxalq təşkilatların nümayəndələrini bir araya toplayıb.

"AzerTelecom" şirkəti Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi Bakcell şirkətinin törəmə müəssisəsidir və 2008-ci ildə təsis edilib. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtləlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital HUB" proqramını icra edir. "Digital HUB" proqramının məqsədi ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Rəqəmsal Mərkəzə çevirməkdir. "Digital HUB" proqramı nəticəsində Azərbaycanın Regionun Rəqəmsal Mərkəzinə çevrilməsi hazırda Çin hökumətinin təşəbbüskarı olduğu "Bir kəmər, bir yol" layihəsində Azərbaycanın da iştirakına töhfə verəcək. Proqramın icrası ilə Azərbaycan "Bir kəmər, bir yol" layihəsinin telekommunikasiya dəhlizinə çevriləcək.

***"Azərbaycan"***

## "Azərsu" ASC təxirəsalınmaz qəzaların qarşısının alınması üçün təmir-bərpa işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs - Hikmət Qasımovdan, telefon 431-47- 67/2249) ala bilərlər.

**İştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **31 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **11 iyun 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 iyun 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin mobil rabitə xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 25 aprel 2019-cu il tarixli yekun protokoluna əsasən "Azercell Telecom" LLC qalib elan edilmiş və 25 aprel 2019-cu il tarixində müqavilə imzalanmışdır.

Ünvan: AZ1005 Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66

***Tender komissiyası***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC növbəti ağacəkmə aksiyası keçirib

25 aprel tarixində "AzerGold" QSC Beynəlxalq Yer Günü münasibətilə Daşkəsən rayonunda yerləşən Çovdar yatağında növbəti ağacəkmə aksiyası keçirib.



Tədbir çərçivəsində 1 hektar ərazidə 300-ə yaxın qoz, fındıq, gavalı, alma, armud ağacları əkilib. Cəmiyyətin 100-ə yaxın əməkdaşının iştirakı ilə baş tutan ağacəkmə aksiyası ölkə ərazisində keçirilən genişmiqyaslı yaşıllaşdırma işlərinə, ətraf mühitin mühafizəsinə, ekoloji tarazlığın qorunmasına töhfə vermək məqsədlərini daşıyır.

Qeyd edək ki, bu, "AzerGold" QSC tərəfindən aprel ayı ərzində keçirilən artıq ikinci ağacəkmə aksiyasıdır. Bundan əvvəl, aprelin 17-də keçirilən aksiyada "Çovdar" yatağı ərazisində 200-ə qədər qarışıq ağac tingləri əkilib.

Ətraf mühitin mühafizəsi "AzerGold" QSC tərəfindən həyata keçirilən korporativ sosial məsuliyyət siyasətinin dörd əsas komponentindən birini təşkil edir. Bu komponent üzrə həyata keçirilən ağacəkmə aksiyalarında bu günədək 17 hektar ərazidə 8 mindən çox ağac və kol əkilib.

## BİLDİRİŞ

**"Azərişıq" ASC tərəfindən 14 mart 2019-cu il tarixdə Müxtəlif mal-materialların satın alınması** məqsədilə keçirilmiş açıq tenderin 2-LOT üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir.

Tender komissiyasının qərarına əsasən müvafiq LOT-lar üzrə "Tikinti-Təmir-Təchizat-Bərpa" QSC qalib elan olunmuş və şirkətlə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

*Təkrar*

# "Azərsu" ASC daxili vəsaiti hesabına tikinti materiallarının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev: 431-47-67/2288) ala bilərlər.

İştirak haqqı 200 manatdır.

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "KapitalBank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **21 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **30 may 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **31 may 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# "Bakı Metropoliteni" QSC Müxtəlif növ mebel və mebel aksesuarlarının satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16 (əlaqələndirici şəxs: Rauf Yusifov; telefon: 490-00-91) ünvanından ala bilərlər.

**LOT-1 Müxtəlif növ mebel və mebel aksesuarlarının satın alınması**

| | |
|---|---|
| **İştirak haqqı:** | **LOT-1 - 400 manat** |
| **Hesab:** | **AZ98AZRT38050019440010268002** |
| **VÖEN:** | **1402871431** |
| **Bank:** | **AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)** |
| **Kodu:** | **501361** |
| **VÖEN:** | **9900006111** |
| **M/H:** | **AZ02NABZ01350100000000022944** |
| **S.W.İ.F.T:** | **AZRTAZ22** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **23 may 2019-cu il saat 17:00-a qədər** Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **24 may 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# "Bakı Metropoliteni" QSC birləşdirici qutuların satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1** "Bakı Metropoliteni" QSC üçün birləşdirici qutuların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16 (əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ünvanından ala bilərlər.

**İştirak haqqı: LOT-1 - 100 manat**
**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kodu: 501361**
**VÖEN: 9900006111**
**M/H: AZ02NABZ01350100000000022944**
**SWIFT: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **16 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24 may 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 may 2019-cu il saat 14:30-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 20 aprel 2019-cu il tarixli 85 (8108) nömrəsində açıq məkanda reklam yerləşdirilməsinin satın alınması üzrə Azərbaycan Respublikası Vergilər Nazirliyinin dərc edilmiş tender elanında "Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti" hissəsində "31 dekabr 2019-cu il tarixinədək" sözləri "12 ay ərzində" sözləri ilə əvəz edilsin.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikası Vergilər Nazirliyi dövlət vergi orqanlarının tanınma nişanı, vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqləndirmə nişanlarının satın alınması üçün *açıq tender elan edir*

Müvafiq maliyyə və texniki imkanlara malik olan tender iştirakçıları tender təkliflərini yazılı şəkildə, möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanına təqdim etməlidirlər.

Tender təklifi zərfləri 24 may 2019-cu il tarixdə yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tenderdə iştirak etmək üçün iştirakçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 (doxsan) bank günü qüvvədə olmalıdır);*
- *İştirakçının Azərbaycan Respublikasında vergilərə, digər icbari ödənişlərə dair yerinə yetirilməmiş və vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *İştirakçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İştirakçının son 1 (bir) ildəki bank dövriyyəsi haqqında arayış;*
- *İştirakçının ixtisas göstəricilərinə dair sənədlər;*
- *İştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *İştirakçının bank rekvizitləri barədə məlumat;*
- *İştirakçının rəhbərinin şəxsiyyətini və vəzifəyə təyin olunmasını təsdiq edən sənədlərin surəti;*
- *Müvafiq malların uyğunluq sertifikatları və mallar daxili istehsal olduqda istifadə olunası xammalın mənşə sertifikatları, xarici istehsalçı vasitəsilə təqdim edildikdə müvafiq malların mənşə sertifikatları;*
- *İştirakçının istehsal sahəsi haqqında məlumat (mülkiyyət hüququnu təsdiq edən sənədin və ya icarə müqaviləsinin notarial qaydada təsdiq edilmiş surəti);*
- *Satınalma müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edəcək və müvafiq malların istehsalında və təchizatında iştirak edəcək işçilərin ixtisası və təcrübələri barədə məlumat;*
- *Tenderin əsas şərtlər toplusunda iştirakçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 15 may 2019-cu il saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı 750,00 (yeddi yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Hesab №: AZ65CTRE00000000000002118401**
**VÖEN: 1300204521**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**Büdcə təsnifatının kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tender təklifi və tender təklifinin təminatı 23 may 2019-cu il saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri Tender komissiyasının iclasında iştirak edə bilərlər.

Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti: satınalma müqaviləsinin imzalandığı tarixdən 31 dekabr 2019-cu il tarixədək.

Malların təqdimedilmə müddəti: hər sifarişdən sonra 10 təqvim günü.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

**AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16, Azərbaycan Respublikası Vergilər Nazirliyi.**
**Əlaqələndirici şəxs: Gülbahar Qasımova, e-mail: gulbaxar.qasimova@taxes.gov.az, tel: (+994 12) 403-87-91.**

*Təkrar*

# "Azərişıq" ASC Astara rayonu üzrə 10/0,4 kV-luq xətlərin çəkilişi işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1.** Astara rayonu Şüvi-Sekaşan, Pəlikeş-Diqo, Abyerud, Doli və Sipiyyət kəndləri üzrə 10/0,4 kV-luq xətlərin çəkilişi işlərinin satın alınması

**İştirak haqqı 300 manat**

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93; daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15 may 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **29 may 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 may 2019-cu il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi professor

**ARİF MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Baş nazirin köməkçisi Sabir Bayramova qardaşı

**BAYRAM MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax Xeyriyyə İctimai Birliyinin İdarə Heyətindən İlham Pirməmmədov, Teymur Bünyadov, Nəriman Həsənzadə, Nizami Cəfərov, Məmməd Musayev, Məhəmməd Babanlı, Şahin Mustafayev, Əhməd Vəliyev və İctimai Birliyin digər üzvləri Vidadi Bayramova qardaşı

**BAYRAM BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Respublika Dəri Zöhrəvi Dispanserin baş həkimi və kollektivi dispanserin həkimi Nəzakət Cəfərovaya atası

**SÖHRABIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan


AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9098
Sifariş 1364
Qiyməti 40 qəpik